QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 124 (5596) 5 **iyul** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**

# Prezident İlham Əliyevin yanında ölkənin enerji sistemində vəziyyətlə əlaqədar müşavirə keçirilib

Səh 2



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məlumatı 5



Əli Həsənov: "Təəssüf ki, insan ölümündən xüsusi zövq alan şəxslər də tapılır" 4



Yeni Azərbaycan Partiyası İdarə Heyətinin növbəti iclası keçirilib 5



Həyat və fəaliyyəti cəmiyyət üçün parlaq nümunə olan şəxsiyyət 8



İşğalçı Ermənistanın qanlı əməllərinin izi 10



Hikmət Hacıyev: Ermənistanın yeni hakimiyyətinin bu addımı hərbi avantüradır 4



14 AXCP sədri hələ də"siyasi məhbus" manipulyasiyası edir



12 Robert Koçaryan istintaqa çağırılıb



16 "Yuventus"un 400 milyonluq Ronaldo planı



# Prezident İlham Əliyevin yanında ölkənin enerji sistemində vəziyyətlə əlaqədar müşavirə keçirilib

***İyulun 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında ölkənin enerji sistemində vəziyyətlə əlaqədar müşavirə keçirilib. AZƏRTAC xəbər verir ki, müşavirəni açan Prezident İlham Əliyev bildirib ki, Mingəçevirdəki İstilik Elektrik Stansiyasında baş vermiş qəza nəticəsində ölkəmizin enerji təchizatında ciddi problemlər yaranıb. Görülmüş operativ tədbirlər nəticəsində bir neçə saatdan sonra enerjinin verilməsi bərpa edilib:***



"Səhər mənim Sərəncamımla məsələni araşdırmaq üçün Dövlət Komissiyası yaradılmışdır və komissiya öz işinə başlamışdır. Komissiya qarşısında bir neçə vəzifə qoyulmuşdur. Onların arasında əsas vəzifə məsələni araşdırmaq və qəzanın səbəblərini aşkar etməkdir. Eyni zamanda, komissiya günahkarları müəyyən etməli, onlara qarşı görüləcək tədbirlər haqqında təkliflər verməlidir və gələcəkdə belə qəzaların təkrarlanmaması üçün tədbirlər planı hazırlamalıdır.

Dünən axşam saatlarında enerjinin verilməsi yenidən kəsildi. Yenə də görülmüş tədbirlər nəticəsində qısa müddət ərzində enerjinin verilməsi bərpa edildi. Qeyd etməliyəm ki, mən bütün dövlət orqanlarına ciddi tapşırıq vermişdim ki, bütün dövlət orqanlarının nümayəndələri bu vəziyyətdə vətəndaşlara kömək göstərsinlər ki, biz bu vəziyyətdən şərəflə çıxa bilək. Deyə bilərəm ki, bütün dövlət orqanları bu vəzifənin icrasında böyük peşəkarlıq göstərmişlər. Onların çox uğurlu fəaliyyəti nəticəsində bu qəza demək olar ki, aradan qaldırıldı. Baxmayaraq ki, vətəndaşlara böyük əziyyət verildi, heç bir ağır hadisə baş verməmişdir.

Fövqəladə Hallar Nazirliyi təxliyə işlərini tez və düzgün şəkildə aparmışdır. Vətəndaşlar metrodan təxliyə edildi. Liftlərdə qalmış vətəndaşlar təxliyə olundu. Xilasedicilər çox uğurla fəaliyyət göstərdilər.

Daxili işlər orqanları çox operativ şəkildə fəaliyyətə keçmişlər. İlk növbədə, asayişin qorunub saxlanması məsələləri gündəlikdə idi. Eyni zamanda, işıqforların işləməməsi nəticəsində böyük təhlükə var idi ki, şəhər nəqliyyatı idarəolunmaz vəziyyətə düşə bilərdi. Polis əməkdaşları yol kəsişmələrində uğurlu fəaliyyət göstərərək yol hərəkətini tənzimləyə bilmişlər.

Onu da qeyd etməliyəm ki, Azərbaycan vətəndaşları bu məsələ ilə bağlı böyük məsuliyyət, böyük vətəndaş həmrəyliyi göstərmişlər. Bütövlükdə Azərbaycan cəmiyyəti bu çətin sınaqdan şərəflə çıxa bilmişdir. Fürsətdən istifadə edərək, bütün Azərbaycan vətəndaşlarına göstərdikləri dəstəyə, anlayışa və vətəndaş həmrəyliyinə görə təşəkkürümü bildirmək istəyirəm. Bilirəm ki, vətəndaşlar bir-birlərinə kömək göstərmişlər. Bu, bir daha onu göstərir ki, Azərbaycan cəmiyyəti çox yetkin cəmiyyətdir və Azərbaycanda, sözün əsl mənasında, vətəndaş həmrəyliyi mövcuddur.

Nəqliyyat məsələləri tənzimləndi. Bakı Nəqliyyat Agentliyi dərhal operativ tədbirlər gördü, xətlərə yeni avtobuslar çıxarıldı, sərnişinlərə böyük diqqət və qayğı göstərildi. Bir sözlə, hesab edirəm ki, bütün dövlət qurumları bu ağır vəziyyətdə çox çevik fəaliyyət, böyük peşəkarlıq göstərmişlər və biz bu vəziyyətdən az itkilərlə çıxa bilmişik.

Ancaq iki dəfə baş vermiş qəza çox ciddi araşdırılmalıdır. Çünki son illər ərzində Azərbaycanın enerji sektoruna çox böyük investisiyalar qoyulub. Son 15 il ərzində Azərbaycanda onlarla yeni elektrik stansiyası istifadəyə verilmişdir. Son 15 il ərzində 2500 meqavat gücündə yeni elektrik stansiyaları tikilmişdir. Bizim enerji potensialımız hazırda 6400 meqavata bərabərdir. Onun 2500 meqavatı, qeyd etdiyim kimi, son 15 il ərzində yaradılıb. Ölkəmizin bütün bölgələrində yeni elektrik stansiyaları tikilmişdir - Bakı, Sumqayıt, Şirvan şəhərlərində, Astara, Xaçmaz, Şəki, Quba rayonlarında. Eyni zamanda, bölgələrdə su elektrik stansiyaları yaradılmışdır. Yəni, bu stansiyaların coğrafiyası onu göstərir ki, biz çalışırdıq ölkəmizin bütün bölgələrində yeni stansiyalar tikilsin ki, enerji sisteminin dayanıqlılığı təmin edilsin. Ancaq bir qəza nəticəsində demək olar ki, bütün enerji sistemi sıradan çıxdı. Bu məsələ çox ciddi suallar yaradır. Bu məsələ çox ciddi araşdırılmalıdır.

Dövlət Komissiyasının sədri Yaqub Eyyubovdur və sözü ona verirəm.

x x x

Baş nazirin birinci müavini, komissiyanın sədri Yaqub Eyyubov:

-Möhtərəm cənab Prezident.

Məruzə edirəm ki, Mingəçevirdə yerləşən "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinə məxsus "Azərbaycan İstilik Elektrik Stansiyası" Məhdud Məsuliyyətli Cəmiyyətinin yarımstansiyalarının birində baş vermiş qəza ilə bağlı Sizin tapşırığınıza uyğun olaraq "Azərenerji"nin prezidenti Etibar Pirverdiyevlə iyulun 3-də səhər saat 8-də Mingəçevir şəhərinə gedərək hadisə yerində birlikdə baxış keçirdik. Baxış zamanı müəyyən olundu ki, iyulun 3-də saat 10:17 radələrində "Azərbaycan İstilik Elektrik Stansiyası"nın 330 kilovoltluq yarımstansiyasında cərəyan transformatorunda qəza nəticəsində orada olan təxminən min kiloqrama qədər yağ ətrafa axmış, yaxınlıqdan keçən elektrotexniki avadanlıqların, eləcə də kabellərin, əsasən də informasiya və avtomatika kabellərinin üzərinə dağılaraq yanğına səbəb olmuşdur. Qeyd olunmalıdır ki, həmin kabellərin uzun illərdir istismar edilməsi yanğının intensivliyini bir qədər də artırmışdır. Eyni zamanda, qeyd edilməlidir ki, qəza baş verən vaxtda bu yarımstansiyaya xidmət edən stansiyanın 6-cı blokunda iş dayanmış, lakin ona verilən qaz dayandırılmadığından burada da yanğın baş vermişdir. Hər iki yanğın söndürülmüşdür. Bütün bunların nəticəsində işlək vəziyyətdəki enerji blokları və hava xətlərində qəza açılışları olmuş, stansiyada gərginlik tam itmiş və respublikanın elektrik enerjisinin əsas ötürücülərindən olan birinci "Abşeron" elektrik hava xətti ilə elektrik cərəyanı verilişi tam dayanmış, stansiyanın avtomatika və idarəetmə sistemi pozulmuşdur. Bununla əlaqədar Bakı və Gəncə şəhərləri də daxil olmaqla respublikanın rayonlarının elektrik enerjisi təminatında fasilə yaranmışdır.

Cənab Prezident, yaranmış vəziyyət ilkin təhlil edildikdən sonra baş vermiş qəza ilə bağlı iyulun 3-də Sizin tapşırığınızla Sərəncamınızla yaradılmış Dövlət Komissiyasının ilk iclası keçirilmişdir. İclasda qəzanın səbəbləri, nəticələrinin aradan qaldırılması ilə bağlı tədbirlər müzakirə olunmuş və bununla əlaqədar müvafiq vəzifələr müəyyən edilmişdir. İclasın sonunda - saat 19:00 radələrində enerji sistemində yenidən açılmalarla bağlı məlumat daxil olmuşdur. Yaranmış vəziyyətlə bağlı "Azərenerji" ASC-nin baş dispetçer məntəqəsinə gedərək enerji sisteminin yenidən dayanması səbəblərini araşdırmağa çalışmışıq. Dispetçerlər burada problemin aradan qaldırılması ilə məşğul olmuş və elektrik enerjisinin verilişi bərpa edildikdən sonra Sizin tapşırığınızla, ilk növbədə, xüsusi həyati əhəmiyyətli obyektlərə - xəstəxanalara, metroya, hava limanına, Neft Şirkətinə, "Gəncə Det.Al" alüminium şirkətinə və digər bu kimi obyektlərə elektrik enerjisinin verilməsi təmin edilmişdir. İyulun 4-də saat 4 radələrində isə ölkə üzrə tələbata uyğun gücün əldə edilməsinə nail olunmuşdur. Rusiya və Gürcüstandan da əlavə elektrik enerjisi alınmışdır. Qəzanın səbəblərini daha dəqiq müəyyən etmək üçün ölkənin bu sahədə aparıcı mütəxəssislərindən, o cümlədən Energetika, Fövqəladə Hallar nazirliklərinin, Azərbaycan Milli Elmlər Akademiyasının, Neft və Sənaye Universitetinin mütəxəssislərindən ibarət ekspert komissiyası yaradılmışdır. Komissiyaya rəhbərlik Azərbaycan Milli Elmlər Akademiyasının Fizika İnstitutunun direktoru Nazim Məmmədova tapşırılmışdır. Komissiya işə başlamışdır, bir həftə ərzində araşdırma qurtarandan sonra nəticələr Sizə məruzə ediləcəkdir.

Cənab Prezident, icazənizlə "Azərişıq" ASC-nin elektrik təchizat sistemində baş vermiş fasilə ilə əlaqədar bir sıra dövlət müəssisələrində yaranmış vəziyyətlə bağlı aşağıdakıları məruzə etmək istərdim. Neft Şirkəti üzrə - hadisə ilə əlaqədar neft emalı zavodunda bütün qurğular dayanmışdır. Hazırda katalitik krekinq qurğusundan başqa digər emal qurğuları iş rejimlərində çalışır. Katalitik krekinq qurğusunun regenerator blokunda yaranmış problem isə qurğunun soyudulması və daxili hissənin yoxlanılmasından sonra dəqiq müəyyənləşdiriləcəkdir. İlkin ehtimala görə görüləcək təmir-bərpa işləri təxminən 8-10 gün çəkəcəkdir. Katalitik krekinq qurğusunun təmiri dövründə ölkənin avtomobil benzininə tələbatı zavodda mövcud olan 80 min tona qədər qalıq ehtiyat hesabına təmin ediləcəyi üçün təchizatla əlaqədar hər hansı bir problem gözlənilmir. Hadisə ilə əlaqədar neft və qazçıxarma idarələrində, birgə müəssisələrdə nəzərdə tutulandan təxminən 4,2 min ton neft, 1 milyon 135 min kubmetr qaz az hasil edilmişdir. Neft Şirkətinin bütün müəssisələrində istehsalat sahələrinin normal iş rejiminə çıxarılması prosesi həyata keçirilir.

"Azərsu" üzrə - içməli su mənbələri, su emal qurğuları, su və kanalizasiya şəbəkələri sistemlərində qəza vaxtı dayanmalar olmuşdur. Əsas qurğuların mühafizəsi tədbirləri həyata keçirilmiş, təhlükəsizlik təmin edilmiş, sıradançıxmanın və subasma hallarının qarşısı alınmışdır. Elektrik kəsilməsindən dərhal sonra su təchizatı, kanalizasiya qurğuları və şəbəkə sistemlərinin işçi vəziyyəti yoxlanılmış, sıradan çıxmış hissələrin bərpası, magistral və şəbəkə xətlərinin qəzalı hissələrinin təmiri üçün təxirəsalınmaz tədbirlər görülmüşdür. Anbarlardakı mövcud su ehtiyatlarından səmərəli istifadə olunması, həyati əhəmiyyətli obyektlərin dayanıqlı su təchizatının, eləcə də əhalinin minimum su təchizatının təmin olunması üçün 100-dən artıq sudaşıyan maşın cəlb edilmişdir. Hazırda regionların su təchizatı tam təmin edilmişdir, Bakı şəhərinin tələbatına uyğun olaraq şəbəkə sistemlərinin fasiləsiz su ilə təchizatı səviyyəsi 92-93 faizdir. Anbarlardakı su ehtiyatlarının həcmi isə 45-50 faizdir. Şəbəkə sistemlərinin hidravlik rejimlərinin pozulması nəticəsində baş vermiş qəzaların aradan qaldırılması, tələbata uyğun su təchizatı və su ehtiyatı iyulun 5-dək tam təmin ediləcəkdir.

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Etibar Pirverdiyev:

-Möhtərəm cənab Prezident.

İlk növbədə, Azərbaycan enerji sistemində yaranmış qəza vəziyyəti ilə əlaqədar olaraq çox dərin narahatlığımızı bildirməklə yanaşı, Sizdən və eyni zamanda, respublikamızın enerji istehlakçılarından üzr istəyirəm. Həmçinin İstilik Elektrik Stansiyasında baş vermiş qəza ilə bağlı vəziyyəti təcili olaraq nəzarətə götürdüyünüzə görə Sizə dərin minnətdarlığımızı bildiririk.

Son 15 ildə energetika sektorunda Sizin rəhbərliyiniz ilə...

Prezident İlham Əliyev: Onu bilirik, son 15 il ərzində nələr görülüb. Sən de görək qəzanın səbəbləri nədir və nə üçün ölkəni qaranlıq bürümüşdü? Səbəblər nədir?

Etibar Pirverdiyev: iyulun 3-də və ondan əvvəlki vəziyyətlə bağlı məlumatı təqdim etmək istərdim. İyun ayının gündəlik elektrik istehsalını götürdükdə, ayın əvvəlində biz görürük ki, gündəlik istehlaka 50-55 milyon kVt/saat arasında enerji verilmişdir. Son bir həftə ərzində isə bu rəqəm 70-75 milyona qalxmışdır. Təxminən 40 faiz birdən-birə...

Prezident İlham Əliyev: Bu, qəzanın səbəbi ola bilməz. Bəziləri bunu isti hava ilə bağlayırlar. Bizdən də daha isti ölkələr var. Orada belə qəzalar baş vermir. Baş verəndə ölkələrin enerji sistemi çökmür. Yenə də deyirəm, qəza baş verə bilər. Qəzanın fəsadlarının aradan qaldırılması işləri də aparılmalıdır və aparılır. Ancaq bir qəzaya görə bütün ölkənin enerji sisteminin çökməsi - bu, yumşaq desək böyük səhvdir. Bizim indi kifayət qədər enerji gücümüz var. Mən giriş sözümdə bunu qeyd etdim. Təkcə 15 il ərzində 2500 meqavat gücündə elektrik stansiyaları yaradılmışdır. Biz indi xarici ölkələrə elektrik enerjisi ixrac edirik. Ona görə, isti havalarla bağlı istehlakın artması qəzanın səbəbi ola bilməz. Qəzanın səbəblərini komissiya araşdıracaq. Qeyd etdiyim kimi, bu məqsədlə komissiya yaradılıb.

Ardı Səh. 3

# Prezident İlham Əliyevin yanında ölkənin enerji sistemində vəziyyətlə əlaqədar müşavirə keçirilib

Əvvəli-Səh-2

Siz, sadəcə olaraq, utanmalısınız, xalq qarşısında, ölkə qarşısında. Bu isti havada insanlara bu qədər əziyyət vermisiniz. Metroda qalanlar, qocalar, uşaqlar, qadınlar, xəstələr, liftlərdə qalanlar. İqtisadiyyata nə qədər böyük ziyan vurmusunuz. Təkcə Neft Şirkətinin indi burada deyilən ziyanını hesablasaq ölkəyə nə qədər böyük iqtisadi ziyan dəyib. Mən bu sahəyə bu qədər investisiya ayırmışam. Dövlət İnvestisiya Proqramında hər il bu məqsədlə böyük vəsait ayrılır. İndi yeni elektrik stansiyaları tikilir. İndi "Şimal-2" elektrik stansiyası tikilir. Son 15 il ərzində 30 stansiya tikilmişdir. Elə bir sistem qurulmalı idi ki, bir qəzaya görə ölkənin enerji sistemi çökməsin. Nə üçün Bakıda, Sumqayıtda, qeyd etdiyim kimi, bölgələrdə istifadəyə verilmiş elektrik stansiyaları o qəza baş verəndən sonra fəaliyyətini dayandırdı?! Siz bunun səbəbləri haqqında danışmalısınız. Bunun izahatını siz verməlisiniz. Yoxsa mənə indi verilən məlumat ki, havalar isti keçir, istehlak artır, bu, məni qane edə bilməz, qətiyyən. Əyləşin.

Bir daha deyirəm, Yaqub Eyyubov, məsələni çox ciddi araşdırmaq lazımdır. Bütün komissiya üzvləri fəal işləməlidirlər. Qısa müddət ərzində həm birinci qəzanın səbəbləri, xüsusilə ikinci qəzanın səbəbləri haqqında mənə məruzə edilməlidir.

Yaqub Eyyubov: Baş üstə.

x x x

Fövqəladə hallar naziri Kəmaləddin Heydərov:

-Möhtərəm cənab Prezident, bildiyiniz kimi, iyulun 3-də saat 00:20 dəqiqədə...

Prezident İlham Əliyev: Biz bunları bilirik, siz keçin mövzuya. Hansı işlər görülüb, hansı işləri görmüsünüz?

Kəmaləddin Heydərov: İlk hadisə zamanı mən özüm də srağagün oraya getdim. Şəxsən müşahidə etdiyim o idi ki, o cərəyan açarı olan hissədə onun içərisindəki yağ dağılmış və qabağında olan kanallarda kabelləri yandırmışdır. Biz əvvəllər də "Azərenerji"yə göndərdiyimiz məktublarda qeyd etmişdik ki, bu kanalların üstü möhkəm bağlanmalı və açıq olmamalıdır, hər hansı bir qəza baş verərsə, o yağlar oraya tökülməsin. Təəssüf olsun ki, təxminən bütün 63 açarın qabağındakı kanalların hamısının üstü möhkəmləndirilməmişdir. Biz komissiyanın üzvlərinin, Baş Prokurorluğun, Daxili İşlər Nazirliyinin, yerli təhlükəsizlik orqanlarının əməkdaşları ilə birgə apardığımız müşahidəyə əsasən gəldiyimiz qənaət budur ki, doğrudan da bizim əvvəllər göstərdiyimiz iradların heç birinə riayət olunmamışdır. Ərazi quru otlardan təmizlənməmişdir. Soyutma qurğularının heç biri demək olar ki, işləmir. Əgər orada soyutma kanalı ilə, - düzdür indi deyirlər ki, bu çoxdanın problemidir, - Mingəçevir gölünün dibindən alınan suyun temperaturu 12 dərəcə olmalı olduğu halda qəza baş verən gün suyun temperaturu 28 dərəcə olmuşdur, dünən isə 26 dərəcə idi. Yəni, bu, soyutma işlərinə maneçilik törədir.

Cənab Prezident, Siz çox düzgün qeyd etdiniz ki, oradakı hər hansı bir yarımstansiyada qəza olduğu halda nəinki sistem çökməməlidir, heç o stansiyanın digər bloklarında da başqa bir şey olmamalıdır.

Prezident İlham Əliyev: Yaxşı, əyləşin. Bu təklifləri təqdim edərsiniz, komissiyada baxılar və komissiyanın yekun rəyində mütləq öz əksini tapmalıdır.

Kəmaləddin Heydərov: Baş üstə.

x x x

Daxili işlər naziri Ramil Usubov:

- Hörmətli cənab Prezident.

Hadisə baş verəndən sonra dərhal Sizin tapşırığınızı rəhbər tutaraq göstəriş verdim ki, biz fövqəladə hallarda hansı hərəkəti etməliyik. Daxili İşlər Nazirliyi olaraq digər qurumlarla birlikdə asayişin qorunması, təhlükəsizliyin təmin edilməsi üçün əlavə tədbirlər işlədik hazırladıq və həyata keçirməyə başladıq. Məruzə edirəm ki, təqribən 30 min nəfərin təxliyə olunmasında Fövqəladə Hallar Nazirliyi ilə birgə iştirak etdik və eyni zamanda, avtobusların vətəndaşlarımızı evlərinə aparmasında da yol polisi onları müşayiət etdi. Hərəkətin təhlükəsizliyi ilə bağlı, hörmətli cənab Prezident, Dövlət Yol Polisi ilə bərabər Post Patrul Xidmətinin 150 nəfər əməkdaşını da Bakı şəhərində bu işə cəlb etdik və normal hərəkət təmin olundu.

Bildirmək istəyirəm ki, bundan sonra dövlət əhəmiyyətli obyektlərin, diplomatik korpusların yerləşdiyi ərazilərin qorunması da tərəfimizdən gücləndirildi. Məruzə edirəm ki, elektrik enerjisinin olmaması ilə bağlı bu iki gündə elə bir ağır cinayət hadisəsi baş verməyib. Bu gün ölkəmizdə vəziyyət tam nəzarət altındadır. Bəzi təxribata çağırışlar olur, cənab Prezident, həmin adamlar da biz müəyyənləşdiririk və qanun çərçivəsində onlar haqqında tədbir görülməsi davam etdirilir.

x x x

Prezident İlham Əliyev: Səhiyyə naziri, xəstəxanalarda vəziyyət necə idi və bu gün necədir?

Səhiyyə nazir Oqtay Şirəliyev:

-Möhtərəm cənab Prezident.

Baş verən qəzadan sonra biz daim bütün regionlarla əlaqə saxlayırdıq. Siz bilirsiniz ki, demək olar, bizim bütün rayonlarda yeni xəstəxanalar tikilib və bütün müasir tibbi avadanlıqla təchiz olunub. Hər yerdə generator sistemləri quraşdırılıb. Hər yerdə generatorlar işləyirdi, tibbi xidmət göstərilirdi. Bakı şəhərində də nazirliyin əməkdaşları təhkim olunmuşdu. Bakı şəhərində də ilk növbədə, cərrahiyyə, əməliyyat blokları, reanimasiya tam tərkibdə işləyirdi. Bu iki gün ərzində məsələ ilə bağlı bir ölüm hadisəsi də olmadı. Təcili yardım tam gücü ilə işləyirdi. 2130 çağırış olub. Bunlardan 220 adam xəstəxanalara daxil olub, onlara tam həcmdə yardım göstərilib. Metronun hər stansiyasının qarşısında təcili yardım maşını təhkim olunmuşdu. Onların arasında cəmi 19 nəfər müraciət edib, o da gərginlikdən, əsəbdən. Onlara ilkin tibbi yardım göstərilib. Cəmi 6 nəfər xəstəxanalara yerləşdirilib.

x x x

Prezident İlham Əliyev: "Azərsu", məruzə edin. Su təminatı ilə bağlı vəziyyət necədir?

- "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov:

Möhtərəm cənab Prezident.

Hadisə baş verən kimi, biz mövcud su və kanalizasiya nasosxanalarını, su mənbələrini su basmasının qarşısının alınması üçün vacib tədbirlər gördük və bu qurğuların heç birində heç bir problem olmayıb. Enerji kəsiləndən sonra mövcud vəziyyəti qiymətləndirdik. Su anbarlarındakı ehtiyatlarımız, kanalizasiya-nasos stansiyalarına aparan xətlərin təhlil imkanları olan xətlər. Həmin ərazilərə əvvəlcə ehtiyat suların qənaətlə verilməsi rejimini müəyyənləşdirdik. Harada ki nasos stansiyasına ehtiyac yoxdur, öz axınında, rejimində su verilir. Digər yerlərə suyun verilməsi üçün biz su maşınlarını işə cəlb etdik. Fövqəladə Hallar Nazirliyindən, Bakı Şəhər İcra Hakimiyyətindən, rayon icra hakimiyyətlərindən, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən, öz maşınlarımızı, eyni zamanda, fərdi sahibkarlıqla məşğul olan su maşınlarını bu işlərə cəlb etdik. Rayon icra hakimiyyətləri ilə birgə biz öz axını ilə su verə bilmədiyimiz yerlərdə də əhalinin su təminatı ilə məşğul olduq. Hazırda artıq suyun mənbələrdən verilişi tam bərpa edilib. Şəhərin 92-93 faizinə su verirk. Anbarlarda ehtiyatımız 45-50 faizdir. Sabah səhər saatlarında tam rejimə çıxacağıq.

x x x

Prezident İlham Əliyev: "Azərişıq". Bölgələrdə enerji təchizatı ilə bağlı vəziyyət necədir?

"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri Balababa Rzayev:

-Möhtərəm cənab Prezident. Hazırda Bakı şəhəri 100 faiz, Bakıətrafı ərazilər 90 faiz, regionlar isə 85-90 faiz təmin olunur. Qeyd olunan ən mühüm obyektlərlə bağlı bizim tərəfimizdən qərargah yaradıldı. Ən böyük fasilə həyati vacib obyektlərdə birinci açılmada oldu.

Prezident İlham Əliyev: Nə qədər oldu?

Balababa Rzayev: Təxminən 2 saat 40-50 dəqiqə. Dünənkində isə 30 dəqiqə. Rusiyadan alınan birinci 100 meqavat ki, bizə Abşeron xətti ilə verildi, onunla bütün xəstəxanalar, kanalizasiya və su təchizatı sistemi, bütün həyati vacib obyektlər, metro, hava limanı - bunlar hamısı təmin olundu.

x x x

Prezident İlham Əliyev: Bakı Metropoliteni. Məruzə edin, vəziyyət necədir?

"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov:

- Möhtərəm cənab Prezident. Ayın 2-də gərginlik itəndən sonra aşağıdakı fəsadlar yarandı: hərəkətdə olan 18 sərnişin qatarı dayandı - 9-u stansiyalarda, 9-u tunellərdə. Sərnişin qatarlarının, stansiyaların və tunellərin işıqları söndü, eskalatorlar və travalatorlar, ventilyasiya şaxtaları, əsaslı, yerli və çirkab su xaric qurğularının nasosları dayandı. Təqribən saat yarımdan sonra əsaslı su xaric qurğularında suyun səviyyəsi qalxdı. Metronun "Sahil", "Nizami" və "Nəsimi" stansiyalarında səviyyə kritik həddə çatmışdı.

x x x

Prezident İlham Əliyev: Fizika İnstitutunun direktoru, məlumat vermək üçün məsələ var?

Azərbaycan Milli Elmlər Akademiyasının Fizika İnstitutunun direktoru Nazim Məmmədov:

-Bəli, mən qısaca məlumat verə bilərəm. Artıq komissiyanın iş cədvəli təyin olunmuşdur. Bizim birinci iclasımız keçirilib, ikinci iclasımız saat 7-də Yaqub müəllimin yanında olacaq.

Prezident İlham Əliyev: İlkin hansısa bir məlumatınız var?

Nazim Məmmədov. Mən indi istəməzdim onu deyim.

Prezident İlham Əliyev: Yaxşı, əyləşin.

x x x

Baş prokuror Zakir Qaralov:

-Möhtərəm cənab Prezident, baş vermiş qəza ilə bağlı verdiyiniz Sərəncamın 3-cü bəndinin icrasına uyğun olaraq cinayət işi qaldırılmışdır. Cinayət işi yanğın təhlükəsizliyi qaydalarını pozma, vəzifədən suiistifadə etmə və səhlənkarlıq maddələri ilə qaldırılmışdır. Daxili İşlər və Fövqəladə Hallar nazirlikləri ilə birgə əmr imzalamaqla istintaq-əməliyyat qrupu yaradılmışdır. Hazırda istintaq-əməliyyat qrupu hadisə yerində təxirəsalınmaz tədbirlər həyata keçirir. Hadisə yerinə baxış keçirilmiş, müvafiq sənədlər götürülmüş və artıq hadisənin başvermə səbəbləri ilə bağlı dindirmələrə başlanılmışdır.

İclasdan əvvəl mənə verilən ilkin məlumata görə, həmin stansiyada generatorların gövdəsindəki hidrogen qazın soyudulması üçün normativ tələblərə əsasən suyun hərarəti 12 dərəcə olmalı olduğu halda, ümumi soyutma sisteminin layihəyə uyğun yerinə yetirilməməsi nəticəsində 28,5 dərəcədə olmuşdur. Vaxtilə 1994-cü ildə müvafiq layihə işlənilmiş, Mingəçevir su anbarının altından kanalın çəkilməsi nəzərdə tutulurdu. Həmin məsələ icra olunmamışdır. Belə bir halda gərginlik azalmaqla cərəyan artmışdır.

Digər vacib məsələ, qəza baş vermiş cərəyan transformatorlarının istismar müddətini başa vurmasına baxmayaraq, müntəzəm olaraq texniki istismar qaydaları, uyğun təmirbərpa işləri aparılmamışdır. Halbuki hər il orada bərpa işləri aparılır, ancaq mütəxəssislərimiz həmin bərpa işlərinin yetərli olmaması ilə bağlı ilkin rəylərini verirlər. Belə ki, 2012-ci il sentyabrın 28-də ildırım vurması nəticəsində zədələnmiş hava açarı müasir eleqaz tipli açarla əvəz olunsa da, onun mühafizə dövriyyəsindəki cərəyan transformatoru yenisi ilə əvəz olunmamış və təmir işləri aparılmamışdır. Nəticədə cərəyan transformatorunun gövdəsindəki yağın analizi aparılmamış, turşuluğu, nəmliyi, deşilmə gərginliyi və tangensi yoxlanılmamışdır. Bununla da qəza vaxtı cərəyan transformatorunun izolyasiyası normadan aşağı olduğuna görə zədələnmişdir. Eyni zamanda, son 3 ildə Fövqəladə Hallar Nazirliyi tərəfindən həm "Azərenerji"nin rəhbərliyinə, həm onun baş mühəndisinə yazılmış 6-dan artıq tələbnamədə tələb olunurdu ki, orada həm yağ sızması mövcuddur, eyni zamanda, kabellərin odadavamlı izolyasiyası təmin olunmamış, ümumiyyətlə, baş verən yanğın haqqında məlumatın avtomatik verilməsi ilə bağlı sistem qurulmamış və 6 mazut çəninin su ilə soyutma sistemi ümumiyyətlə quraşdırılmamışdır. Dəfələrlə hər il bu məsələ qaldırılır, 6 mazut çənində su ilə soyutma sistemi quraşdırılmayıb. Bütün bunlar qəzaya gətirib çıxarmışdır. Siz tamamilə düzgün sual verdiniz ki, nə səbəbə görə bir elektrik stansiyasında baş vermiş qəza lokallaşmır, bütövlükdə bizim energetika sistemi çökür? Mütəxəssislərin fikri ondan ibarətdir ki, "Azərenerji" tərəfindən rele mühafizə xidməti ölkə üzrə tam axıra qədər icra olunmayıb. Yəni, bunu biz Sizə mütəxəssislərin əlavə rəylərini aldıqdan sonra təqdim edəcəyik. Müvafiq istintaq tədbirləri davam etdirilir və çox ciddi tədbirlərin görülməsi təmin ediləcəkdir.

x x x

Prezident İlham Əliyev: Kiminsə əlavə sözü var? Beləliklə, Komissiyanın növbəti iclaslarında bütün bu məsələlər geniş müzakirə olunmalıdır. Bir daha demək istəyirəm ki, qəzanın səbəbləri araşdırılmalıdır. İndi ilkin məlumat var, amma gərək daha geniş məlumat əldə edilsin. Qəzanın səbəbləri vacib olsa da, bundan daha önəmli məsələ qəza nəticəsində ümumi sistemin sıradan çıxmasıdır. Bu, çox ciddi bir faktdır və əlavə tədbirlər görülməlidir ki, gələcəkdə əgər hər hansı bir qəza baş verərsə ümumi sistemə bunun təsiri olmasın, yəni, qəza lokal xarakter daşısın. Bu, hesab edirəm ki, komissiyanın işində əsas istiqamət olmalıdır. Tədbirlər planı hazırlanmalıdır. Tədbirlər planına bu gün bu müşavirədə səsləndirilən fikirlər də salınmalıdır, o cümlədən beynəlxalq auditin cəlb edilməsi məsələsi. Hesab edirəm ki, bu, çox vacibdir. Həm Mingəçevirdəki İstilik Elektrik Stansiyasının tam təftişi və auditi aparılmalıdır. Eyni zamanda, ölkəmizin bütün enerji sisteminin beynəlxalq, aparıcı, bu sahədə peşəkarlıqla seçilən qurumlar tərəfindən təhlili aparılmalıdır və təkliflər verilməlidir. Bu işlərdə günahı olan bütün insanlar müəyyən edilməlidir və onlar cəzalandırılmalıdır.

Fürsətdən istifadə edərək, bu vəziyyətdə bizə kömək göstərən Rusiya və Gürcüstan tərəfinə öz təşəkkürümü bildirmək istəyirəm. Onlar belə bir vəziyyətdə bizə kömək göstərdilər. Bildiyiniz kimi, Azərbaycan bu ölkələrlə sıx əlaqələr saxlayır, bizim dostluq əlaqələrimiz var və hər hansı bir qəza baş verdikdə biz də kömək göstəririk, onlar da kömək göstərirlər. Bu, hesab edirəm ki, çox önəmli amildir və bir daha öz təşəkkürümü bildirmək istəyirəm.

Strateji obyektlərdə generatorların quraşdırılması məsələsinə də baxmaq lazımdır, ilk növbədə, xəstəxanalarda və metroda. İndi səhiyyə naziri məruzə edir ki, bütün xəstəxanalarda generatorlar işləyib. Məndə olan məlumata görə bu, həqiqətə uyğun deyil. Bəzi xəstəxanalarda generatorlar işləməyib, ya olmayıb, ya qoşulmayıb, ya da ki, işlək vəziyyətdə olmayıb. Ona görə, siz gərək ciddi təftiş aparasınız, bütün ölkə üzrə xəstəxanalarda generatorların mövcudluğu və onların işlək vəziyyətdə olması haqqında həm komissiyaya, həm də mənə məruzə etməlisiniz.

O ki qaldı metropolitenə, ümumiyyətlə, bildiyimə görə, metropolitendə generatorlar mövcud deyil. Hesab edirəm ki, bu da çox acınacaqlı faktdır. Tezliklə təkliflər verin ki, metronun bütün stansiyalarında generatorlar olsun və enerji ilə hər hansı bir problem yarandıqda insanlar əziyyət çəkməsinlər. Hesab edirəm ki, komissiya öz işini tezliklə yekunlaşdıracaq və təkliflər hazırlayıb mənə təqdim edəcək. Sağ olun.

# Əli Həsənov: "Təəssüf ki, insan ölümündən xüsusi zövq alan şəxslər də tapılır"

*"Dünənki hadisələr fonunda Azərbaycanda mütləq əksəriyyətin bu sınaqdan alnıaçıq çıxdığını çəkinmədən söyləyə bilərəm." SİA-nın məlumatına görə, bunu Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov "Facebook" səhifəsində yazıb.*



PA rəsmisi deyib: "Yaxşı insanlar həyatda baş verən hər şeyə işıqlı tərəfdən baxır, əgər qəlb oxşayan, ruh dincəldən bir şey görürlərsə, onu başqaları ilə paylaşır və hamının bu gözəllikdən bəhrələnməsinə çalışırlar. Hətta yaxşı bir şey görmədikdə belə, onlar özləri gözəlliyi yaradır və yenə də ətrafları ilə paylaşırlar.

İyulun 3-də 42-45 dərəcəyə yüksələn isti havanın təsiri ilə ölkənin enerji təminatında mühüm rol oynayan Mingəçevir İES-də baş vermiş qəzadan dərhal sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi ilə Xüsusi Dövlət Komissiyası yaradıldı, dövlət başçısının tapşırığına uyğun olaraq müvafiq qurumlar operativ şəkildə qəzanın nəticələrinin aradan qaldırılmasına başladılar. Atılan addımlar nəticəsində proqnozlaşdırıla biləcək bütün mənfi halların qarşısı dərhal alındı, ən əsası isə, vətəndaşlarımızın həyatı qorundu, insan tələfatına yol verilmədi və çox qısa zaman kəsiyində elektrik enerjisi təminatı bərpa olundu.

Dövlət qurumları qəzanın nəticələrini aradan qaldırmağa çalışarkən Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə qarşı silahlı sui-qəsd həyata keçirildi, onun özü və mühafizəçisi yaralandı. Məsələ barədə dərhal Azərbaycan Prezidentinə məruzə olundu, dövlət başçısının tapşırıqları alındı, cinayəti törədən şəxs isti izlərlə tərksilah edilərək saxlanıldı".

Ə.Həsənovun sözlərinə görə, hər kəs yaxşı bilir ki, heç bir ölkə fövqəladə haldan, təbii fəlakətdən, böyük qəzalardan və kriminal hadisələrdən sığortalanmayıb: "Hazırlıq dərəcəsindən asılı olmayaraq, fövqəladə situasiyaların yaratdığı gözlənilməzlik effekti hər bir ölkədə müəyyən fəsadlar ortaya çıxarır. Ölkəmizdə kriminogen durum sabit olsa da, cinayətlərin sayına görə Azərbaycan MDB və Şərqi Avropada sonuncu yerlərdə qərar tutsa da, törədilən cinayətlərin açılma səviyyəsinə görə öncül mövqeləri bölüşsək də, insan canına qəsd tipli hadisələr cəmiyyətdə narahatlıq, çaşqınlıq və xof yarada bilir. Belə cinayət tanınmış şəxslərə qarşı törədiləndə isə onun doğurduğu ajiotaj daha böyük olur.

Azərbaycanda baş vermiş həm son fövqəladə qəzanın, həm də məlum kriminal hadisənin eyni vaxta düşməsi, əlbəttə ki, əlavə gərginlik yarada bilən hal kimi xarakterizə edilə bilər. Belə hallarda məmurundan tutmuş adi vətəndaşına, iqtidarından tutmuş müxalifətinə, ziyalısından fəhləsinə qədər - hər bir təbəqə, hər bir sağlam düşüncəli insan ümumi işə töhfə vermək üçün əlindən gələni etməli, bunu bacarmadıqda isə, ən azından işə mane ola biləcək artıq hərəkətlərdən çəkinməli, süni gərginlik yarada biləcək hərəkətlərə yol verməməlidir. Lakin təəssüf ki, hərdən insan fəlakətini, fövqəladə qəza və kriminal hadisələri özünə maddi və siyasi dividend mənbəyi hesab edən fürsətcillər, insan ölümündən xüsusi zövq alan şəxslər də tapılır.

İnsan faciəsi, baş verən fəlakət yalnız dövlət qurumları üçün deyil, ümumilikdə bütün cəmiyyət üçün, siyasi mövqeyindən, dinindən, irqindən asılı olmayaraq hər bir şəxs üçün bir kamillik imtahanı, sınaq anıdır. Bir şəxsin düçar olduğu bədbəxt hadisədən, insanların rastlaşdığı kütləvi faciələrdən zövq almaq, yaxud bundan öz maraqları naminə bəhrələnməyə çalışmaq indiyə qədər heç kimə divident qazandırmayıb. Fəlakət və qəzalara bir millət olaraq nə dərəcədə hazırıq, fors major situasiyalarda dövlətin yanındayıqmı, şaiyə texnoloqlarının, antimilli ünsürlərin, dövlətimizin qəsdinə hazır duranların fəaliyyətinə, işbazların bazarına meydan tanıyırıqmı? Dünənki hadisələr fonunda Azərbaycanda mütləq əksəriyyətin bu sınaqdan alnıaçıq çıxdığını çəkinmədən söyləyə bilərəm..."

PA rəsmisinin sözlərinə görə, təəssüf ki, bu dəfə də istisnalar oldu: "Yenə də müxalifətin radikal kəsimi və xarici ölkələrdə məişət müxalifətçiliyi edən bəzi "milli təəssübkeşlər" ölkəmizdə baş verən qəzanı şans sanıb iç üzlərini bütün çılpaqlığı ilə açdılar, ortaya kamillik deyil, rəzillik nümunəsi qoydular. Onlar qaranlıq gecəni "məxfilik pərdəsi" hesab edərək insanları "bankları dağıtmağa", "Azadlıq" meydanına çıxmağa, Gəncədəki cinayəti - dövlət məmurunun həyatına sui-qəsdi "digər şəhərlərdə də təkrarlamağa" çağırışlar etdilər. Onların bir çoxunun saxta profillərdə gizləndiyi, bəzi qonşu dövlətlərin uzantısı olduğu az-çox siyasətdən başı çıxan hər kəsə məlumdur. Amma bu sırada 1992-1993-cü illərdə Azərbaycanda dövlət katibi, dövlət müşaviri, nə bilim nazir, icra başçısı, prokuror, polis rəisi, hərbi hissə komandirinin olduğunu görüncə, yaxud sabah ölkəmizdə prezident, ölkə başçısı, parlament sədri olmaq istəyən "siyasi xadimlər"i müşahidə edəndə sağlam düşüncəli insanı dəhşət bürüyür. Bunlar o illərdə ölkəmizi necə və hansı təfəkkürlə idarə ediblər?! Allah eləməsin, beləri indiki təfəkkür və mövqe ilə bir neçə il hakimiyyətdə qalsaydı gör nələr yaşanardı? Yaxud, Allah eləməsin, onlar gələcəkdə ölkənin sükanını əllərinə keçirsələr nə olar?"

Ə.Həsənov qeyd edib ki, ölkədə olarkən özlərinə Dədə Qorqud donu biçib "barışdırıcılıq", "arbitrilik" eşqinə düşən bəziləri isə xaricə qaçaraq yad ölkələrdə özlərinə sığınacaq tapar-tapmaz XIX əsrin rus anarxistləri üslubunda hər yerdə itaətsizlik təşkil etməyə çalışır, hər gün üsyan çağırışları edir, hətta Gəncədəki kriminal hadisənin personajını qəhrəmanlaşdırmağa cəhd göstərdilər:

"Məsələnin daha pis cəhəti ondadır ki, həmin çağırışlara müxalifət partiyalarının ayrı-ayrı tanınmış nümayəndələri tərəfindən də dəstək verilir. Bəzən vətəndaş cəmiyyətinin müxalif düşüncəli bəzi təmsilçilərinin mövqeyi də adamı əməlli-başlı çaşdırır. Görən bunca rəzillik, yetişdikləri torpağa, kökləri ilə bağlı olduğu xalqa, dövlətə, Vətənə bunca nifrət hardandır bu adamlarda? Bunlar bu ağıllamı iqtidara gəlib dövləti idarə etmək istəyirlər? Heç kim unutmamalıdır ki, dövlətin atributları hansısa iqtidarın inhisarında deyil və olmayacaqdır. Allah eləməsin, sabah belə təfəkkürlü insanlar iqtidara gəlsə, ölkənin qanunları ilə, dövlətlə, dövlətçiliklə bələmi davranacaqlar? İtaətsizliyə, dövlət atributlarına saygısızlığa, insanlara qarşı suiqəsdə çağıran siyasətçi ilə dövləti necə idarə etmək olar? 1991-1992-ci illərin havasından çıxmaq üçün bu insanlara görəsən daha neçə onilliklər lazımdır? Getdikləri yolun hara aparıb çıxara biləcəyini və yaxud çıxarmayacağını anlamaq onlar üçün bu qədərmi çətindir?"

## Nazirlər Kabineti hava şəraitinin kəskin isti keçməsi ilə əlaqədar Sərəncam qəbul edib



Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov ölkə ərazisində hava şəraitinin kəskin isti keçməsi ilə əlaqədar Sərəncam imzalayıb. Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin mətbuat xidmətindən məlumat verilib. Sərəncamda deyilir ki, iyulun 4-də, 5-də, 6-da, 7-də hava şəraitinin kəskin isti keçməsi ilə əlaqədar dövlət hakimiyyəti orqanları, fiziki və hüquqi şəxslərin təsis etdikləri mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq respublikanın ərazisində yerləşən bütün müəssisə, idarə və təşkilatların, eləcə də müəssisə yaradılmadan işçilərlə əmək müqaviləsi bağlanmış iş yerlərinin rəhbərlərinə tapşırılsın ki, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 233-cü maddəsinin 2-ci hissəsinin və həmin Məcəlləyə 2-ci əlavənin 1-ci hissəsinin tələblərinə ciddi riayət olunması təmin etsinlər.

## Zahid Lətif Xan: Pakistan Azərbaycan üçün kifayət qədər böyük və mühüm regiondur

Əhalisi 200 milyondan çox olan Pakistanın iqtisadiyyatı və ÜDM-ü artmaqda davam edir. Bu baxımdan ölkəmiz Azərbaycan üçün də kifayət qədər böyük və mühüm regiondur. AZƏRTAC xəbər verir ki, bu barədə iyulun 4-də İqtisadiyyat Nazirliyinin və AZPROMO-nun təşkilatçılığı ilə Azərbaycan-Pakistan biznes forumunda Pakistanın Ravalpindi Ticarət və Sənaye Palatasının prezidenti Zahid Lətif Xan bildirib.

Onun sözlərinə görə, ölkələrimiz arasında geniş biznes imkanları mövcuddur. Azərbaycanla olan biznes imkanlarını araşdırmaq üçün bu forumda 50-dən çox Pakistan şirkəti iştirak edir. Zahid Lətif Xan əlavə edib ki, ticarət və turizm sahəsində də Azərbaycanla Pakistan arasında böyük potensial var.

## Hikmət Hacıyev: Ermənistanın yeni hakimiyyətinin bu addımı hərbi avantüradır

*Ermənistan kütləvi informasiya vasitələrində hökumətin qərarına istinadən Ermənistanın daxili qoşun birləşmələrinin Azərbaycanın işğal olunmuş ərazilərinə yerləşdirilməsi barədə məlumat verilir. Ermənistanın yeni hakimiyyətinin bu addımı hərbi avantüradır və vəziyyətin gərginləşdirilməsinə xidmət edir. Beynəlxalq hüquqazidd bir şəkildə Ermənistan silahlı qüvvələrinin şəxsi heyəti və texnikasının böyük bir hissəsi Azərbaycanın işğal olunmuş ərazilərində cəmləşdirilib.*



AZƏRTAC xəbər verir ki, bu fikirlər Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyevin KİV-ə açıqlamasında yer alıb. Hikmət Hacıyev qeyd edib ki, daxili qoşun birləşmələrinin Azərbaycanın işğal olunmuş ərazilərində yerləşdirməsi Ermənistan ordusunda acınacaqlı vəziyyətin və şəxsi heyətin komplektləşdirilməsində üzləşdiyi ciddi problemlərin əyani göstəricisidir.

Bununla bərabər, ölkənin üzləşdiyi sosial-iqtisadi problemlərin həllində ciddi çətinliklərlə üzləşən Ermənistanın populist rəhbərliyi bu kimi gərginlik ab-havası və hərbi ritorika ilə ictimai rəyi manipulyasiya etməyə və öz reytinqini saxlamağa çalışır. Öz qoşunlarını Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarmaq əvəzinə, Ermənistanın daxili qoşun birləşmələrini də Azərbaycanın işğal olunmuş ərazilərinə dislokasiya etməsi Ermənistanın işğalçı dövlət olduğunu və rəsmi Yerevanın münaqişənin danışıqlar yolu ilə həllində maraqlı olmadığını növbəti dəfə açıq şəkildə nümayiş etdirir. Yaranmış vəziyyətə görə məsuliyyət tam şəkildə Ermənistanın üzərinə düşür.

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məlumatı



*Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Mingəçevirdəki İES-də baş vermiş qəzanın nəticələrinin aradan qaldırılması, Gəncə şəhərində törədilən cinayət hadisəsi və bəzi müxalif dairələrin bundan məqsədyönlü şəkildə yararlanmağa cəhd göstərmələri barədə məlumat yayıb. AZƏRTAC məlumatı təqdim edir. 2018-ci il iyulun 3-də Mingəçevir şəhərində yerləşən "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC-nin yarımstansiyalarından birində baş vermiş qəza nəticəsində respublika ərazisinin böyük hissəsi, o cümlədən Abşeron yarımadası və Bakı şəhərinin elektrik enerjisi ilə təchizatında problem yaranmışdır.*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dərhal məsələni nəzarətə götürmüş, qəzanın nəticələrinin qısa zamanda aradan qaldırılması ilə bağlı aidiyyəti dövlət strukturlarına müvafiq tapşırıqlar vermiş, məsələ ilə əlaqədar Xüsusi Dövlət Komissiyası yaratmışdır.

Mövcud şəraitə uyğun olaraq, qısa müddətdə elektrik enerjisi təchizatının kəsilməsinin mənfi təsir göstərə biləcəyi strateji əhəmiyyətli müəssisələr - təhlükəsizlik, yanacaq-energetika, nəqliyyat-kommunikasiya, hərbi, əhalinin təminatı və s. ciddi nəzarətə götürülmüş və onların idarə olunması işi təşkil edilmişdir. Həyata keçirilmiş ciddi tədbirlər nəticəsində proqnozlaşdırıla biləcək bütün mənfi halların qarşısı alınmış, ən əsası, insan tələfatına yol verilməmişdir.

Hazırda dövlət qurumları qəzanın nəticələrinin aradan qaldırılması və gələcəkdə belə hallara yol verilməməsi istiqamətində zəruri tədbirlər görür, işlərin gedişi barədə əhaliyə müntəzəm məlumat verilir.

Təəssüf ki, əhali Mingəçevirdəki İES-də qəzanın nəticələrinin aradan qaldırılması ilə bağlı qayğıları yaşadığı bir zamanda Gəncə şəhərində cinayət hadisəsi baş vermişdir. Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev və onun mühafizəçisi Qasım Aşbazov naməlum şəxsin odlu silahdan açdığı atəş nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri almış və xəstəxanaya yerləşdirilmişlər. Məsələ barədə dərhal Azərbaycan Prezidentinə məlumat verilmiş və müvafiq tapşırıqlar alınmış, cinayəti törədən şəxs saxlanılmış və məsuliyyətə cəlb edilmişdir.

Göründüyü kimi, Azərbaycan hökuməti bütün vəziyyətlərdə, o cümlədən fövqəladə hallar zamanı ölkənin və əhalinin təhlükəsizliyini, habelə cəmiyyətin normal həyat ritmini təmin etmək iqtidarındadır. Baş vermiş hadisə zamanı görülən işlər bunu əminliklə deməyə tam əsas verir.

Qeyd edilməlidir ki, kütləvi informasiya vasitələri Mingəçevirdəki İES-də qəzanın başvermə səbəbləri, onun aradan qaldırılması ilə bağlı dövlət orqanlarının gördüyü işlər barədə cəmiyyəti operativ və obyektiv şəkildə məlumatlandırmış, olduqca təmkinli və məsuliyyətli davranaraq, əhali arasında ajiotaj yaranmaması üçün üzərlərinə düşən vəzifələri icra etmişlər.

Əfsuslar olsun ki, bəzi müxalif dairələr nəzarətlərində olan xəbər saytları və sosial şəbəkələr vasitəsilə Mingəçevirdəki İES-də baş vermiş qəzadan və Gəncə şəhərində vəzifəli şəxsə qarşı həyata keçirilmiş silahlı basqından məqsədyönlü şəkildə yararlanmağa çalışmış, dövlət və xalq mənafelərinə zidd mövqe tutaraq cəmiyyətdə ajiotaj yaratmaq, kütləvi narazılıq formalaşdırmaq və respublikada sabitliyi pozmaq əhval-ruhiyyəsi nümayiş etdirmişlər. Həmçinin özlərini müstəqil sayan bir sıra xəbər saytları da bu eyforik əhval-ruhiyyəyə qoşularaq dəqiqləşdirilməmiş şayiələri baş vermiş hadisə kimi təqdim etmiş və vətəndaşları yalan informasiyalarla çaşdırmağa cəhd göstərmişlər.

Mingəçevirdəki İES-də baş vermiş qəzanın, o cümlədən bu hadisənin müxtəlif sahələrdə yaratdığı problemlərin aradan qaldırılması üçün dövlət orqanları tərəfindən zəruri tədbirlər görülmüş və qısa müddətdə respublika həyatının bütün sahələrində normal iş fəaliyyəti bərpa olunmuşdur. Görülən işlər barədə müntəzəm qaydada əhaliyə məlumat verilmiş və qarşıdan gələn dövrdə bu fəaliyyət davam etdiriləcək.



# Yeni Azərbaycan Partiyası İdarə Heyətinin növbəti iclası keçirilib

***İyulun 4-də Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda YAP İdarə Heyətinin 2018-ci ilin birinci yarım ilinə dair hesabatı, Yeni Azərbaycan Partiyasının tərkibi haqqında müvafiq dövrə dair statistik hesabat və İdarə Heyətinin 2018-ci ilin ikinci yarımilliyinə dair iş planı müzakirə olunaraq qəbul edilib.***

Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP sədrinin müavini - icra katibi Əli Əhmədov iclasın gündəliyinə daxil olan məsələlər barədə məlumat verib. Əli Əhmədov qeyd edib ki, 2018-ci il müstəqil Azərbaycanın tarixində ən mühüm siyasi hadisə - Azərbaycan Respublikası Prezidentinin seçkilərinin keçirilməsi olub. Azərbaycanda prezident seçkiləri elan edildikdən dərhal sonra Yeni Azərbaycan Partiyasının VI Qurultayı keçirilib. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev Heydər Əliyev Mərkəzində keçirilən qurultayda geniş nitq söyləyib.

Qurultayda Yeni Azərbaycan Partiyasının sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi barədə qərar qəbul edilib.

Yeni Azərbaycan Partiyası bütövlükdə seçki kampaniyasını çox uğurla həyata keçirib, prezidentliyə namizəd İlham Əliyevin təşviqat kampaniyası çərçivəsində ölkənin hər bir yaşayış məntəqəsini əhatə etməklə seçicilərlə möhtəşəm görüşlər keçirilib. 11 aprel tarixi isə Azərbaycan xalqının Yeni Azərbaycan Partiyasının sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə inam və dəstəyinin möhtəşəm təntənəsi oldu. Azərbaycan seçicilərinin mütləq əksəriyyəti ulu öndər Heydər Əliyevin siyasi kursunun uğurlu davamına - Azərbaycanın dinamik inkişafına və qüdrətli gələcəyinə səs verdi.

Hesabat dövründə Yeni Azərbaycan Partiyası müxtəlif xarakterli bir sıra mühüm tədbirlər həyata keçirib, ölkənin ictimai-siyasi həyatında yaxından və fəal iştirakını davam etdirib.

Yeni Azərbaycan Partiyası hesabat dövründə beynəlxalq əlaqələrinin daha da genişləndirilməsi istiqamətində səylərini uğurla davam etdirib. Xüsusilə müxtəlif ölkələrin aparıcı siyasi partiyaları və demokratik təsisatları ilə Yeni Azərbaycan Partiyası arasında mövcud münasibətlər daha da genişləndirilib, bu məqsədlə bir sıra mühüm görüşlər keçirilib. Qeyd edilib ki, Yeni Azərbaycan Partiyasının sıralarının genişlənməsi 2018-ci ildə davam edib, hesabat dövrü ərzində 12 min nəfərdən çox yeni üzv qəbul edilib və beləliklə, partiya üzvlərinin sayı 720 min nəfəri keçib. Partiyaya daxil olanların sırasında gənclər və qadınlar üstünlük təşkil edib. İclasda, həmçinin İdarə Heyətinin 2018-ci ilin ikinci yarım ilinə dair iş planı müzakirə edilərək təsdiq olunub.

# Nümayəndə heyətimiz ATƏT PA-nın sessiyasında iştirak edəcək




Milli Məclis sədrinin müavini, ATƏT Parlament Assambleyasında (PA) Azərbaycan nümayəndə heyətinin rəhbəri Bahar Muradovanın başçılığı ilə bir qrup deputat təşkilatın illik sessiyasında iştirak etmək üçün iyulun 6-da Almaniyanın paytaxtı Berlinə səfər edəcək. Parlamentdən SİA-ya verilən məlumata görə, nümayəndə heyətinin tərkibinə Milli Məclisin deputatı, ATƏT PA-nın vitseprezidenti Azay Quliyev, deputatlar Ülviyyə Ağayeva, Tahir Mirkişili, Elşad Həsənov və Kamran Nəbizadə daxildirlər. Qurumun Daimi komitəsinin iclasında sessiyanın gündəliyi təsdiq olunacaq, xüsusi nümayəndələrin fəaliyyəti ilə bağlı hesabatlar dinləniləcək, prosedur qaydalarına dəyişikliyin edilməsi barədə təkliflərə baxılacaq. Təşkilatın komitələrində hərbi-siyasi sahədə ATƏT-in öhdəlikləri, münaqişələrin həlli yolları, terrorizmlə mübarizə, iqlim dəyişiklikləri, münaqişələrin ətraf mühitə təsiri, rəqəmsal texnologiyaların inkişafı, fövqəladə hallarda insan haqları, qaçqın və miqrantların hüquqları və digər məsələlər müzakirə olunacaq.

Sessiyada "ATƏT çərçivəsində öhdəliklərin yerinə yetirilməsi: parlamentlərin rolu" mövzusu ətrafında müzakirələr aparılacaq. Tədbirdə Azərbaycan tərəfinin "Nəqliyyat şəbəkələrinin inkişafı, o cümlədən Qədim İpək Yolunun bərpası vasitəsilə ATƏT regionunda qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi" adlı qətnamə layihəsi təqdim ediləcək. Toplantıda həmçinin "Terrorizmin, ekstremizmin qarşısının alınması", "ATƏT regionunda müharibə və nifrətin təbliğinə qarşı mübarizə", "Gənclərin hərtərəfli inkişafı üçün imkanların yaradılması yolu ilə sülhün və təhlükəsizliyin təşviqi", "Gender zorakılığı ilə mübarizə", "ATƏT-in səmərəli fəaliyyətinin təmin edilməsi istiqamətində öhdəliklərin təsdiq edilməsi" adlı qətnamələr və digər sənədlər qəbul ediləcək.

Nümayəndə heyətinin üzvləri müzakirəyə təqdim olunacaq məsələlərlə bağlı çıxışlar edəcək, öz fikirlərini bölüşəcəklər. Səfər iyulun 13-də başa çatacaq.

# "Azərbaycanda yəhudilərin həyat tərzi" kitabının təqdimatı olub

***İyulun 4-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində (BBMM) Bakı şəhəri Dağ yəhudiləri dini icmasının rəhbəri Milix Yevdayevin "Jewish life in Azerbaijan" ("Azərbaycanda yəhudilərin həyat tərzi") adlı kitabının təqdimatı keçirilib. AZƏRTAC xəbər verir ki, BBMM-in icraçı direktor əvəzi Rəvan Həsənov kitab haqqında məlumat verib. Bildirilib ki, kitabda Azərbaycanda yaşayan yəhudilərin adət-ənənələri, mədəniyyətləri, həyat tərzləri, eləcə də Azərbaycan-İsrail münasibətləri haqqında məqalələr yer alıb.***



Kitab ABŞ-ın ən böyük yəhudi qəzetlərindən biri olan və Los-Ancelesdə nəşr olunan "Jewish Journal" qəzetində Milix Yevdayevin dərc edilmiş məqalələrinin toplusundan ibarətdir.

Prezident Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov bildirib ki, Azərbaycandakı multikultural mühit beynəlxalq aləmdə yüksək qiymətləndirilir. Azərbaycanın tolerantlığı bir nümunəyə çevrilib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycanın mövcud multikulturalizm və tolerantlıq ənənələrindən danışıb. Qeyd edib ki, bu nəşrdə milli və dini mənsubiyyətindən asılı olmayaraq, hər kəsin ölkəmizdə dinc, yanaşı və sülh şəraitində yaşadığı bildirilir.

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev, Avropa yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski, İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov, Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili və digərləri çıxış edərək yeni nəşrin önəmindən danışıblar. Qeyd olunub ki, kitabda, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü, 20 Yanvar faciəsi və Xocalı soyqırımı kimi xalqımızın başına gətirilən dəhşətli faciələr haqqında ətraflı məlumat verilir.

Daha sonra kitabın müəllifi Milix Yevdayev çıxış edərək bildirib ki, Azərbaycandakı bütün xalqların nümayəndələri özlərini yaşadıqları ölkənin layiqli vətəndaşları hesab edirlər. Çünki Azərbaycanda bunun üçün kifayət qədər yaxşı şərait, xoş münasibət var. O, kitabında da bu məsələlərin xüsusi qeyd olunduğunu deyib.

# Dövlət Sərhəd Xidməti Azərbaycan Sərhəd Mühafizəsinin 99-cu ildönümünə həsr olunan tədbir keçirib

**Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzinin məlumatına görə gənclərin hərbi vətənpərvərlik tərbiyəsi istiqamətində Dövlət Sərhəd Xidməti tərəfindən həyata keçirilən tədbirlər sırasında "Sərhəd" Hərbi-İdman Oyunları xüsusi yer tutur. Artıq ənənəyə çevrilmiş bu hərbi-idman oyunları Dövlət Sərhəd Xidməti rəisinin, təhsil nazirinin, gənclər və idman nazirinin birgə qərarı əsasında keçirilir və gənc nəslin Ulu Öndər Heydər Əliyevin dövlətçilik ideyalarına sədaqət ruhunda tərbiyə olunmasında, Vətənə məhəbbət, dövlətə sədaqət hissinin aşılanmasında, gənclərdə sərhədçi peşəsinə marağın artırılmasında böyük rol oynayır.**



Azərbaycan Sərhəd Mühafizəsinin 99-cu ildönümünə həsr olunan və üç mərhələdə keçirilən hərbi idman oyunlarında bu il 34 sərhədyanı və digər rayonların 178 məktəbinin 890 şagirdi iştirak edibdir. İlk iki mərhələnin yekunlarına görə 10 komanda - Naxçıvan MR Babək rayonunun Nehrəm kəndinin 2 №-li tam orta məktəbin "Babək", Beyləqan rayonu Araz qəsəbəsinin 1 №-li tam orta məktəbin "Araz", Cəlilabad rayonu Ləkin kənd tam orta məktəbinin "Ləkin", Lənkəran şəhər Haftoni kənd tam orta məktəbinin "Xəzər", Qəbələ rayonu Vəndam kənd tam orta məktəbinin "Vəndam-1", Zaqatala rayonu Yuxarı Çardaxlar kənd tam orta məktəbinin "Sərhədçi", Yevlax rayonu 5 №-li tam orta məktəbin "Çeviklər", Qazax rayonu 1-ci Şıxlı kənd tam orta məktəbinin "Dəli Kür", Qusar rayonu Yuxarı Zeyxur tam orta məktəbinin "Zeyxur" və Xəzər rayonu 117 №-li tam orta məktəbin "Xəzər" komandaları finala vəsiqə qazanmışlar.

Oyunların final mərhələsi iyun ayının 25-dən iyul ayının 3-dək Dövlət Sərhəd Xidmətinin sərhəd qoşunlarının Lənkəran sərhəd dəstəsinin Astara sərhəd komendantlığında keçirilmişdir. Oyun iştirakçıları üçün yaradılmış şərait məktəblilərə öz bacarıqlarını tam və sərbəst şəkildə nümayiş etdirməyə imkan veribdir.

Final mərhələsində komandalar "Sıra hazırlığı", "Sərhəd naryadı tərəfindən nəqliyyat vasitələrinə baxışın təşkili", "Avtomatın sökülməsi və yığılması", "Sərhəd pozucusunun yaxalanması və təxliyəsi", "Tüfəngdən hədəfə atəş açmaq", "Maskalanma", "Yaralanmış sərhəd naryadı üzvünə ilkin tibbi yardımın göstərilməsi və təxliyəsi" və "Ləpirçilik" mərhələlərində öz bacarıqlarını nümayiş etdiriblər.

Hərbi-idman oyununun keçirildiyi günlərdə məktəblilər hərbi hissədə yaradılmış şəraitlə tanış olub, onlar üçün bir sıra maraqlı ekskursiyalar təşkil olunub, çoxsaylı mədəni-kütləvi tədbirlər, bilik və idman yarışları keçirilib.

Final mərhələsinin yekunlarına görə Cəlilabad rayonu Ləkin kənd tam orta məktəbinin "Ləkin" komandası birinci, Qusar rayonu Yuxarı Zeyxur kənd tam orta məktəbinin "Zeyxur" komandası ikinci, Beyləqan rayonu Araz qəsəbəsi 1 saylı tam orta məktəbinin "Araz" komandası isə üçüncü yeri tutublar.

İyul ayının 3-də Dövlət Sərhəd Xidmətinin Lənkəran sərhəd dəstəsində "Sərhəd" Hərbi-İdman Oyunlarının yekunlarına həsr olunan təntənəli tədbir keçirilibdir. Tədbirdə Dövlət Sərhəd Xidmətinin, Gənclər və İdman Nazirliyinin və Təhsil Nazirliyinin rəsmiləri qalib komandaları təbrik edərək, "Sərhəd" Hərbi-İdman Oyunlarının gənclərin hərbi vətənpərvərlik tərbiyəsində mühüm rol oynadığını vurğulayıblar.

Tədbirdə "Sərhəd" Hərbi-İdman Oyununun qalibləri kubok, diplom və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

***R.HÜSEYNOVA***

## Azərbaycan-Pakistan biznes konfransı keçirilib



İyulun 4-də İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Azərbaycan-Pakistan biznes konfransı keçirilib. SİA xəbər verir ki, tədbirdə rəsmi şəxslərlə yanaşı, hər iki tərəfdən sənaye, kənd təsərrüfatı, əczaçılıq, tikinti, sığorta, turizm, logistika və digər sahələrdə fəaliyyət göstərən 250-yə yaxın iş adamı iştirak edib.



Biznes-konfransda çıxış edən iqtisadiyyat nazirinin müavini Rüfət Məmmədov Azərbaycanda həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində ölkəmizdə davamlı və dayanıqlı iqtisadi inkişafın, əlverişli biznes və investisiya mühitinin yaradıldığını diqqətə çatdırıb, sahibkarlıq sahəsində həyata keçirilən iqtisadi islahatlar barədə məlumat verib. Vurğulanıb ki, Azərbaycanın əldə etdiyi sosial-iqtisadi uğurlar nüfuzlu beynəlxalq reytinq agentliklərinin hesabatlarında da öz əksini tapır. Azərbaycan-Pakistan iqtisadi-ticarət əlaqələri barədə də danışan Rüfət Məmmədov qeyd edib ki, indiyədək ölkəmizdə 270-ə yaxın Pakistan şirkəti qeydiyyatdan keçib.

Pakistanın Ravalpindi Ticarət və Sənaye Palatasının (RCCI) prezidenti Zahid Lətif Xan Azərbaycan və Pakistanın işgüzar dairələri arasında iqtisadi-ticarət əlaqələrinin inkişaf etdiyini bildirib, mövcud imkanlardan səmərəli istifadənin ikitərəfli əlaqələrin inkişafında rolunu qeyd edib, sahibkarlar arasında yeni əlaqələrin qurulması istiqamətləri barədə fikirlərini bölüşüb. Tədbirdə Azərbaycan və Pakistan iqtisadiyyatına, bu ölkələrin biznes və investisiya imkanlarına dair təqdimatlar keçirilib. Konfrans çərçivəsində AZPROMO və RCCI arasında iqtisadi-ticarət və investisiya əlaqələrinin inkişaf etdirilməsinə, ixracın və xarici sərmayələrin təşviqi sahəsində təcrübə mübadiləsinə dair Anlaşma Memorandumu imzalanıb. Biznes konfrans iş adamları arasında ikitərəfli görüşlərlə davam edib.

# Azərbaycan diasporu bir ideya ətrafında birləşib

## *Ümummilli Lider Heydər Əliyevin "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" 5 iyul 2002-ci il tarixli Fərmanından 16 il ötür*

***Azərbaycan diasporu bu gün bir məslək və əqidə ətrafında yetərincə birləşərək, ölkəmizin mənafeyi istiqamətində ardıcıl iş aparır. Qloballaşan dünyada müxtəlif ölkələrdə yaşayan azərbaycanlıları bir araya gətirmək, bir məslək və ideya ətrafında birləşdirmək, əlbəttə ki, azərbaycançılıq məfkurəsindən yaranan amaldır. Təbii ki, ötən əsrin 90-cı illərinin əvvəllərində müstəqillik əldə etmiş Azərbaycanda ideya əsas prioritetlərdən biri elan edilərək, bu istiqamətdə ardıcıl işlər görülməyə başlandı. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı, digər sahələrdə olduğu kimi, diaspor quruculuğu işində də əsaslı dönüş yaratdı. Dünya azərbaycanlılarının vətənlə əlaqələrini inkişaf etdirmək, soydaşlarımızın milli özünəməxsusluğunu qoruyub-saxlamaq, diasporun potensialından milli maraqlarımızın daha etibarlı şəkildə qorunması istiqamətində faydalanmaq, diasporlararası əlaqələri genişləndirmək kimi məqsədləri reallaqdırmaq üçün mühüm addımlar atıldı. Ümummilli Lider Heydər Əliyev cəmiyyətin bütövləşməsi və azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı amilinə çevrilməsi istiqamətində mühüm işlərə imza atdı. Ulu Öndər azərbaycançılıq ideologiyasının real müstəqilliyə nail olmaq, vahid və bölünməz Azərbaycanı qoruyub-saxlamaq və möhkəmləndirmək üçün vasitə olduğunu vurğulayırdı.***

Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onlar arasında birliyin və həmrəyliyin təmin olunması kimi məsələlərin zəruretini nəzərə alaraq, Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında 2001-ci ilin may ayının 23-də Ümummilli Lider Heydər Əliyevin məlum Sərəncamı bu ideologiyanın gerçəkləşməsinə istiqamətləndi. Qurultay milli ideologiyamız olan azərbaycançılıq ideyası ətrafında soydaşlarımızın birlik və həmrəyliyini nümayiş etdirdi. Qurultayda Ulu Öndər Heydər Əliyev qurultayın məqsədinə, qarşıya qoyulan məsələlərə aydınlıq gətirərək, bildirmişdi ki, hamımız - siz də, biz də çox iş görməliyik ki, Azərbaycanın güclü diasporu yaransın: "Müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar daha da güclənsinlər. İqtisadi cəhətdən daha da möhkəmlənsinlər, yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirak edə bilsinlər. O ölkələrin həyatına öz təsirlərini göstərə bilsinlər. Beləliklə də, müxtəlif ölkələrdə Azərbaycanın müstəqilliyini, onun xarici siyasətini təbliğ etməklə yanaşı, Azərbaycanın problemlərinin həll olunmasına yardım etsinlər. Hesab edirəm ki, dünya azərbaycanlıları bu yol ilə getməlidir və bu yolda hələ istifadə olunmamış böyük imkanlar vardır. Bu gün işinə başlayan qurultay da, məhz bu məqsədi daşıyır".

Bir il sonra 5 iyul 2002-ci il tarixində Ümummilli Lider Heydər Əliyevin "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" imzaladığı Fərman tarixi hadisəyə çevrildi. Artıq imzalanan bu rəsmi sənəddən bu gün 16 il keçir. Tarixi dövr ərizində görülən işlərin miqyası ildən-ilə artmışdır. Əgər o vaxt dünyada 200-dən bir qədər çox diaspor təşkilatımız var idisə, hazırda onların sayı 462-dir. Azərbaycan diaspor təşkilatları həm kəmiyyət, həm keyfiyyət baxımından böyük yol keçmiş, güclənmiş, bu gün dünya miqyasında azərbaycanlılar və onların təmsil etdikləri təşkilatlar önəmli rol oynayırlar.

### AZƏRBAYCAN DİASPOR TƏŞKİLATLARI HƏM KƏMİYYƏT, HƏM DƏ KEYFİYYƏT BAXIMINDAN GÜCLƏNMİŞDİ

Bu gün əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulan diaspora quruculuğu siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qayğısı və yüksək diqqəti sayəsində uğurla davam etdirilir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2008-ci il 19 noyabr tarixli 54 saylı Sərəncamı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi yaradıldı.

Azərbaycan diasporu təşkilatlanaraq, ölkəmizin milli maraqlarını əzmlə qoruyan bir qüvvəyə çevrilib. Azərbaycan diasporunun məskunlaşma coğrafiyasının miqyası sonsuzdur. Dünyanın 5 qitəsində məskunlaşan soydaşlarımızın siyasi, iqtisadi və sosial-mədəni fəaliyyəti yaşadıqları ölkələr, oradakı şərait və mənəvi dəyərlər kimi müxtəlifdir. Lakin problemlərə və çətiniklərə baxmayaraq, azərbaycanlılar hər zaman öz milli mənsubiyyətini, adət-ənənələrini, mənəvi-əxlaqi dəyərlərini qayğı ilə qoruyub-saxlayıb və tarixi Vətənlə əlaqələrini itirməyiblər. Bu gün dünyanın müxtəlif ölkələrində diasporumuzun mövcudluğu da, məhz bu amillə bağlıdır. Azərbaycanlılar Amerika qitəsinin şimal, mərkəzi və cənub hissəsində daha çox məskunlaşıblar.

### "BU GÜN DÜNYANIN MÜXTƏLİF YERLƏRİNDƏ TƏDBİRLƏR KEÇİRİLİR, DÜNYA İCTİMAİYYƏTİ AZƏRBAYCAN REALLIQLARI İLƏ DAHA DA GENİŞ ŞƏKİLDƏ TANIŞ OLA BİLİRLƏR"

2016-cı il 3 iyun tarixində keçirilən Dünya Azərbaycanlıların IV Qurultayı da ölkəmizin tarixinə iftixar gətirəcək hadisələrdən biri kimi yazıldı. Çünki dünya azərbaycanlılarını təmsil edən əsas diaspor təşkilatlarının nümayəndələri, rəhbərləri Azərbaycana - doğma Vətənə gəlmişdilər. Bu birliyin və həmrəyliyin nümayişi idi. Dünya Azərbaycanlılarının IV Qurultayının rəsmi açılışında Azərbaycan Prezidenti İlham Əliyev çıxışında "Mən çox istəyirəm ki, xaricdə fəaliyyət göstərən diaspor təşkilatları da bir nöqtəyə vursunlar və birləşsinlər. Belə olan halda, onların gücü də, ictimaiyyət tərəfindən onlara qarşı hörmət də artacaq" - deyərək, biriyin əsas məsələlərdən olduğunu diqqətə çatdırmışdır: "Xüsusilə, nəzərə alsaq ki, bütün azərbaycanlılar, onların böyük əksəriyyəti vətənpərvərdirlər, Vətənə bağlıdırlar. Onlar istəyirlər ki, Azərbaycan dövləti daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin".

İki gün davam edən Dünya Azərbaycanlılarının IV Qurultayında 49 ölkədən 500-dən çox diaspor nümayəndəsi və qonağın iştirakı bu birlik və həmrəyliyin nümunəsi idi. Qurultayda müasir dövrdə informasiya müharibəsi, bu sahədə yeni fəaliyyət mexanizmlərinin tətbiqi, Azərbaycan diaspor hərəkatında gənclərlə bağlı yeni strategiyanın hazırlanması, yeni qlobal iqtisadi tendensiyalar fonunda lobbi quruculuğu, cəmiyyətə inteqrasiya, siyasi həyatda iştirak və digər bu kimi əhəmiyyətli mövzularda fikir mübadiləsi aparıldı. Dünya Azərbaycanlılarının IV Qurultayında Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində qarşıda duran vəzifələr, təbliğat işində müasir metodların və informasiya texnologiyalarının tətbiqi, soydaşlarımızın hüquq və azadlıqlarının qorunması istiqamətində mövcud olan problemlər və onların həlli yolları və s. prioritet məsələlər müzakirə olundu. Prezident İlham Əliyev Azərbaycan həqiqətləri haqqında dünya ictimaiyyətinə geniş informasiya verilməsinin vacibliyini diqqətə çəkərək, hazırda bizim 92 diplomatik nümayəndəliyimizin və 60 səfirliyimizin olduğunu bildirib.

Azərbaycan Prezidenti İlham Əliyev müstəqilliyimizin ilk illərində zəif olmağımızdan istifadə edən erməni diasporunun uzun illərdir ki, dünyada bizə qarşı çox çirkin kampaniya apardığını və bu kampaniyanın tərkib hissəsinin Azərbaycanı antidemokratik, Ermənistanı isə yazıq, "blokada" şəraitində olan ölkə kimi təqdim etmək məqsədi daşıdığını bildirib: "Azərbaycanda bu illər ərzində diaspor təşkilatları ilə qurulan iş yeni bir mərhələyə gəlib çatıb. Dünyanın müxtəlif yerlərində tədbirlər keçirilir, dünya ictimaiyyəti Azərbaycan reallıqları ilə daha da geniş şəkildə tanış ola bilirlər".

Bu gün ölkəmizdə xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilməkdədir. Diasporumuzun gördüyü işlər yaşadıqları ölkələrin siyasi həyatına təsir edəcək səviyyəyə yüksəlir. Prezident Cənab İlham Əliyevin bu sahədə ardıcıl və qətiyyətli, məqsədyönlü və prinsipial siyasət aparması, deməyə əsas verir ki, Azərbaycan diasporu güclənib, doğma Vətənin taleyüklü problemlərinin həllində yaxından iştirak edir.

**ZÜMRÜD**

# Arzu Nağıyev: "Diplomatik səylərdə işlər daha güclü qurulmalıdır"



***"Bolqarıstanın Azərbaycan, xüsusilə də Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar hazırlanan reportajdan hiss olundu ki, bu ölkə ərazi bütövlüyümüzü dəstəkləyir". Bu fikirləri SİA-ya açıqlamasında siyasi-şərhçi Arzu Nağıyev deyib. Bolqarıstanın Avropa İttifaqına müəyyən müddətdə sədrlik etməsini xatırladan siyasi şərhçi bildirib ki, həmin ərəfdə Bolqarıstan Azərbaycanda baş verən hadisələr Dağlıq Qarabağ münaqişəsinin həllini birmənalı şəkildə izləyirdi: "Bu ölkənin baş naziri də çıxışında Dağlıq Qarabağ münaqişəsinin həllinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində mümkünlüyünü bildirmişdi.***

Əvvəllər Bolqarıstan bir sıra separatçı qüvvələri dəstəkləməklə yadda qalmışdı və Azərbaycana qarşı o qədər də müsbət reaksiya vermirdi. Lakin son vaxtlar xarici siyasətdə atılan addımların nəticəsində Bolqarıstanın ölkəmizlə bağlı mövqeyində mühüm dəyişiklik özünü göstərməkdədir".

A. Nağıyev söyləyib ki, bu məsələdə Azərbaycan prezidentinin Bolqarıstanın ölkə başçısı ilə görüşünü də nəzərə almaq lazımdır: "Dövlət başçılarının görüşündən sonra bir sıra KİV-də Bolqarıstan rəhbərinin Azərbaycanı dəstəkləməsi istiqamətində müsahibələrə rast gəlindi. Son vaxtlar Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təminində mühüm rol oynaması və Bolqarıstanın da bu layihələrdən yararlanması da buna təsir edən amillərdir. Azərbaycanın həyata keçirdiyi siyasi iqtisadi islahatlar Bolqarıstana müsbət təsir edən məsələlərdir".

Siyasi şərhçi qeyd edib ki, Bolqarıstan həm qlobal, həm də regional məsələləri nəzərə alaraq Azərbaycanın dəstəkləyir və bu dəstək dünya mediasında da hiss olunmaqdadır. A. Nağıyev əlavə edib ki, xarici siyasətdə dost, qardaş məfhumu olmur: "Ümumi maraqlar olduqda hamı öz payını göstərir. Avropa İttifaqının ölkələri ilə Azərbaycan arasında ikitərəfli əlaqələr mövcuddur və bu əlaqələrdə müsbət tendensiyalar özünü göstərməkdədir. Bu ölkələrin hər biri ayrı-ayrılıqda Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və erməni təcavüzünü pisləyir. Lakin ümumi məsələlərə gəldikdə, ikili yanaşmalar olub və olacaq da. Bu istiqamətdə həm diaspor, həm də Xarici İşlər Nazirliyinin xətti ilə diplomatik səylərdə işlər daha da güclü qurulmalıdır".

# Həyat və fəaliyyəti cəmiyyət üçün parlaq nümunə olan şəxsiyyət

*Möhkəm əqidəli, vətənpərvər şəxsiyyət, Heydər Əliyev ideyalarına sadiq olan fədakar insan. Bu ifadələr Yaşar Tofiqi Əliyevin həyat və fəaliyyətini səciyyələndirir. Yaşar Əliyevin xalqımız və dövlətimiz qarşısında xidmətlərinin, dövlətçiliyin inkişafına mühüm töhfələr verən fəaliyyətinin başlıca ştrixlərini daha aydın təsvir etmək üçün bir sıra nüanslara xüsusi diqqət yetirmək lazımdır. 1948-ci ildə Bakı şəhərində anadan olan, 1966-cı ildə Bakı şəhəri 1 saylı orta məktəbi bitirdikdən sonra N.Nərimanov adına Azərbaycan Tibb İnstitutuna qəbul olan və 1971-ci ildə oranı bitirərək həkim ixtisasına yiyələnən Yaşar Əliyev əmək fəaliyyətinə 1972-ci ilin yanvar ayından Səhiyyə Nazirliyinin Baş İdarəsinin Kardiologiya şöbəsinin 4 saylı bölməsində başlayıb. Gənc yaşından ictimai-siyasi sahədə fəal iştirak edən Yaşar Əliyev partiya və komsomol işində aktivlik nümayiş etdirərək müxtəlif tədbirlərdə uğurla təmsil olunub. Bunun nəticəsi kimi, Yaşar Əliyev 1975-ci ilin oktyabr ayından 1979-cu ilin may ayınadək Bakı şəhəri Əzizbəyov rayon Komsomol Komitəsinin II katibi vəzifəsində çalışıb. Bu, yüksək prinsipiallığa və vətənpərvərlik hissinə malik olan Yaşar Əliyevin ictimai-siyasi işlərdə fəal təmsil olunduğunu ifadə edən mühüm faktlardan biridir.*







## YAŞAR ƏLİYEV 13 İL ƏRZİNDƏ 2500-DƏN ÇOX PERSONALIN TƏMSİL OLUNDUĞU SEMAŞKO ADINA BAKI ŞƏHƏRİ 1 NÖMRƏLİ XƏSTƏXANAYA UĞURLA RƏHBƏRLİK EDİB

Yaşar Əliyevin əmək fəaliyyətinin çox mühüm mərhələlərindən birini onun 13 il ərzində Semaşko adına Baki şəhəri 1 nömrəli xəstəxanaya uğurla rəhbərlik etməsi ilə bağlıdır. O, 1982-ci ilin dekabr ayına kimi həkim, sonra baş həkimin müavini və 1984-cü ilin mart ayından xəstəxananın baş həkimi işləyib. O zaman ölkəmizdə ən böyük tibb müəssisəsinin baş həkimi olan və 2500 nəfərdən artıq personalın təmsil olunduğu böyük bir kollektivə uğurla rəhbərlik edən Yaşar Əliyev bu müddət ərzində səhiyyə sahəsində innovasiyaların tətbiqi və elmi təcrübə mübadiləsi sahəsində mühüm xidmətlər göstərib. Onun rəhbərliyi dövründə xəstələrin müayinəsi və müalicəsi sahəsində mühüm irəliləyişlər qeydə alınıb, yeni korpuslar və laboratoriyalar istifadəyə verilib, bəhs olunan tibb müəssisəsinin işi xeyli dərəcədə təkmilləşib. Bu dövrdə çoxsaylı elmi müdafiələr və təcrübələr də həyata keçirilib.

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN FƏAL MÜDAFİƏÇİSİ

Mühüm məqamlardan biri budur ki, Sovet imperiyası tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş 20 Yanvar faciəsi zamanı güllələbaran edilmiş - xəsarət almış və dünyasını dəyişmiş insanlar Semaşko adına Bakı şəhəri 1 nömrəli xəstəxanaya gətirilmiş və bütün bunlar sənədləşdirilərək deputat-istintaq komissiyasına və Respublika Prokurorluğuna təqdim edilmiş, o cümlədən bir çox ölkələrin səfirliklərinə göndərilmişdi.

Ümummilli məsələlərdə daim prinsipial mövqedən çıxış edən Yaşar Əliyevi cəmiyyətə daha yaxşı tanıdan amillərdən biri onun 1990-cı illərin əvvəlində vətənpərvər bir ziyalı kimi Azərbaycanın qarşılaşdığı problemlərə görə narahatlıq keçirməsi və ölkəmizin xaosdan, anarxiyadan qurtulmaq üçün Ümummilli lider Heydər Əliyevin Azərbaycanda yenidən siyasi hakimiyyətə gəlməsi uğrunda aparılan mübarizədə yer alması idi. O da digər vətənpərvər insanlar kimi həmin dövrdə ölkəmizin üzləşdiyi çətinliklərdən yeganə xilas yolunu Ulu öndər Heydər Əliyevin Azərbaycanda yenidən siyasi hakimiyyətə gəlməsində görürdü.

Məlumdur ki, həmin dövrdə hakimiyyətdə olan rəhbərlərin yarıtmaz və antimilli siyasəti nəticəsində Azərbaycan xaos və anarxiya ilə üzləşmişdi, tənəzzülün məngənəsində idi, eyni zamanda, ermənilərin Azərbaycan torpaqlarını işğalı davam edirdi. Belə bir mürəkkəb və çətin şəraitdə yeganə çıxış yolu Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsi idi. Yaşar Əliyev belə bir situasiyada əsl vətəndaşlıq mövqeyi nümayiş etdirərək Ulu öndərin ölkəni xilas etməsinin zəruriliyini qeyd edir, bu istiqamətdə fədakar və mübariz yanaşma ortaya qoyurdu. Hələ Heydər Əliyev Naxçıvan MR-da olarkən Heydər Əliyevin Hüquqlarının Müdafiəsi Komitəsinin üzvü kimi Yaşar Əliyev fədakarlıq nümayiş etdirərək dəfələrlə muxtar respublikaya səfər etmiş, Onunla görüşərək mənəvi dəstəyini ifadə etmiş, Ulu öndərin Azərbaycanda hakimiyyətə gəlməsinin xalqın tələbi olduğunu ifadə etmişdi. Yaşar Əliyev Heydər Əliyevə və Onu dəstəkləyənlərə qarşı təzyiqlərin olduğu bir dönəmdə parlamentdə də Ulu öndərin fəal müdafiəçisi kimi çıxış edirdi. O, 1992-ci ilin mayın 18-də AXC-"Müsavat" cütlüyünün hakimiyyəti qəsb etməsi, qeyri-qanuni yolla və parlamentə təzyiq göstərilməsi metodu ilə İsa Qəmbərin Milli Məclisə sədr seçilməsi ilə bağlı çıxış edərək öncə ölkədəki vəziyyətin müzakirə edilərək müvafiq qiymətləndirilməsini, bundan sonra parlament sədrinin seçilməsini tələb etmiş və parlament sədri postuna ən layiqli namizədin məhz təcrübəli dövlət xadimi, dünya siyasətini dərindən bilən Heydər Əliyev olduğunu cəsarətlə vurğulamışdır. Parlamentdə Ulu öndər Heydər Əliyevə qarşı kampaniya aparılarkən Yaşar Əliyev Ümummilli liderin azsaylı müdafiəçilərindən biri idi. Bu dövrdə parlamentdə təmsil olunan 360 deputatdan, hansı ki, onların böyük əksəriyyəti Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə dövlət və hökumət strukturlarında vəzifəyə, rayon rəhbərliyinə irəli çəkilmişdi,- yalnız bir neçəsi bu təşəbbüsü dəstəkləmişdi və Yaşar Əliyev də bu sırada yer alırdı. AXC-"Müsavat" hakimiyyətinin "parlament çevrilişi" olaraq 360 deputatın səlahiyyətlərinin 50 nəfərdən ibarət deputata verilməsi ilə yaradılmış Milli Şura əslində qətiyyən milli iradəni ifadə etmirdi. Lakin xalqın nəzərində öz legitimliyini tam itirməmək üçün onun sıralarında obyektivliyi və peşəkarlığı cəmiyyətdə şübhə doğurmayan Yaşar Əliyev kimi ziyalılarında təmsil olunmasına imkan verilmişdir. Həmin vaxt AXC-"Müsavat" hakimiyyəti, xüsusilə parlamentin o dövrdəki rəhbərliyi Ulu öndər Heydər Əliyevin Milli Şuranın üzvü olmadığı üçün parlamentə sədr seçilməsinin mümkün olmadığı iddiası ilə çıxış edərkən məhz Yaşar Əliyev Heydər Əliyevin Milli Şuraya seçilməsi üçün öz deputat mandatından imtina etməyə hazır olduğunu ifadə edərək əsl vətəndaşlıq və yüksək vətənpərvərlik mövqeyi nümayiş etdirmişdi.

## YAŞAR ƏLİYEV QANUNVERİCİLİK SAHƏSİNDƏ SƏMƏRƏLİ FƏALİYYƏTİ İLƏ HÜQUQİ DÖVLƏTİN İNKİŞAFINA VƏ PARLAMENTARİZM ƏNƏNƏLƏRİNİN MÖHKƏMLƏNDİRİLMƏSİNƏ XİDMƏT EDİB

Yaşar Əliyev həmçinin 18 oktyabr 1991-ci il tarixində qəbul edilmiş Müstəqillik Aktına səs verən şəxslərdən biri olub. Məlum olduğu kimi, 1990-cı ildə Azərbaycan SSRİ XII çağırış Ali Sovetinin deputatı, 1992-ci ildə isə Milli Şuranın üzvü seçilən Yaşar Əliyev qanunvericilik sahəsində də öz fəaliyyəti ilə dövlətin inkişafına, dövlətçiliyin

# Həyat və fəaliyyəti cəmiyyət üçün parlaq nümunə olan şəxsiyyət









möhkəmləndirilməsinə xidmət edib. 1994-cü il oktyabrın 14-dən əmək fəaliyyətini Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini kimi davam etdirən Y. Əliyev 1995-ci ildə I çağırış Azərbaycan Respublikası Milli Məclisinə seçilib, parlament sədrinin müavini kimi fəaliyyət göstərib. O, səmərəli fəaliyyətinin qanunauyğun nəticəsi kimi, 2000-ci ildə parlament seçkilərində növbəti dəfə seçicilərin yüksək etimadını qazanıb.

Milli Məclisin deputatı kimi 12 illik fəaliyyəti dövründə Yaşar Əliyev qanun yaradıcılığı və hüquqi dövlət quruculuğu prosesində, hüquqi bazanın formalaşdırılmasında, qanunvericiliyin təkmilləşdirilməsində yaxından iştirak edib. Onun ictimai-siyasi fəaliyyətinin çox mühüm səhifələrindən birini Ümummilli lider Heydər Əliyevin Sədri olduğu Azərbaycan Respublikasının Konstitusiyasının qəbulu üzrə Dövlət Komissiyasının üzvü olması, Konstitusiyanın hazırlanması və qəbuluna öz dəyərli töhfələrini verməsi təşkil edir.

## YAŞAR ƏLİYEV AZƏRBAYCANIN BEYNƏLXALQ ƏLAQƏLƏRİNİN DAHA DA YAXŞILAŞDIRILMASI İSTİQAMƏTİNDƏ MÜSTƏSNA XİDMƏTLƏR GÖSTƏRİB

Yaşar Əliyev Azərbaycanın beynəlxalq əlaqələrinin daha da yaxşılaşdırılması və dünyada mövqeyinin möhkəmlənməsi istiqamətində də yorulmaz fəaliyyət göstərib, müstəsna xidmətləri ilə yadda qalıb. MDB ölkələrinin Parlament Assambleyasının Şurasının üzvü olan, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına iki dəfə vitse-prezident seçilən Yaşar Əliyev həm də beynəlxalq aləmdə ölkəmizi layiqincə təmsil edib, Azərbaycan həqiqətlərinin fəal təbliğatçısı olub. Y. Əliyev parlamentlərarası münasibətlərin inkişafında, səmərəli əlaqələrin qurulması və genişləndirilməsi istiqamətində əhəmiyyətli işlər görüb. Ən mühüm məqamlardan biri budur ki, Yaşar Əliyev hər zaman Ermənistanın işğalçı siyasəti nəticəsində torpaqlarımızın 20 faizinin işğal altında olduğunu nəzərə çatdırıb, milli məsələlərlə bağlı qətiyyətli və fəal mövqedə dayanıb. Uzun müddət İran- Azərbaycan Dövlətlərarası Komissiyasının sədri olan Yaşar Əliyev iki ölkə arasında münasibətlərin inkişafına özünəməxsus töhfələr verib. AXC-"Müsavat" hakimiyyəti dövründə pozulmuş İran-Azərbaycan əlaqələrinin bərpa olunmasında - ikitərəfli təmasların sıxlaşmasında Y. Əliyevin təşəbbüsləri mühüm rol oynamışdır. O, bu mərhələdə İran prezidenti və ali dini rəhbəri ilə 10 dəfədən çox görüşmüş, rəsmi səfərlərin həyata keçirilməsində və müqavilələrin imzalanmasında yüksək təşkilatçılıq qabiliyyəti nümayiş etdirmişdir.



Onun Azərbaycan dövləti qarşısında müstəsna xidmətlərindən birini 2002-2011-ci illər ərzində Çin Xalq Respublikasında (ÇXR) Azərbaycanın fövqəladə və səlahiyyətli səfiri kimi səmərəli fəaliyyəti təşkil edir. Y.Əliyev bu dövrdə Azərbaycan-Çin münasibətlərinin inkişafına, iki ölkə arasında ticarət dövriyyəsinin artmasına, diplomatik əlaqələrin intensiv xarakter almasına və müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsinə mühüm töhfələr verib. ÇXR-də azərbaycanlıların hüquqlarının müdafiə olunması, iqtisadi fəaliyyətinin qurulması və davam etdirilməsi, o cümlədən partiyalararası münasibətlərin - Çin Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında əlaqələrin qurulması və inkişafı istiqamətində də çoxsaylı işlər görmüşdür. Bütövlükdə, Yaşar Əliyev bu müddət ərzində ÇXR-dən əlavə, Vyetnam, Monqolustan, Cənubi və Şimali Koreya dövlətlərində ölkəmizin fövqəladə və səlahiyyətli səfiri kimi uğurlu fəaliyyət göstərmişdir. Onun səfir kimi fəaliyyət göstərdiyi müddətdə Çində dəfələrlə Azərbaycan günləri keçirilib. Xüsusi olaraq Çində Olimpiya Oyunları keçirilən il böyük bir mədəniyyət tədbiri - Çində Azərbaycan Mədəniyyəti Günləri təşkil edilib. Həmçinin Şanxay şəhərində ənənəvi olaraq təşkil olunan beynəlxalq "Ekspo" sərgidə Azərbaycan guşəsinin yaradılması və ölkəmizin təbliğ edilməsində də onun mühüm xidmətlərini diqqətə çatdırmaq lazımdır. Yaşar Əliyev yuxarıda göstərilən dövlətlərlə yanaşı, digər Şərq və Qərb ölkələri ilə də əlaqələrin qurulmasında da müstəsna rol oynayıb.

## PEŞƏKAR DİPLOMAT VƏ TƏCRÜBƏLİ PARLAMENTARİNİN FƏALİYYƏTİ YÜKSƏK QİYMƏTLƏNDİRİLİR

Bütövlükdə, həm səhiyyə sahəsində uğurlu fəaliyyəti ilə yadda qalan, həm də ictimai-siyasi fəaliyyətində mühüm nailiyyətlər qazanan Yaşar Əliyevin - peşəkar diplomat və təcrübəli parlamentarinin dövlətçiliyin qorunması və inkişafı istiqamətində fəaliyyəti daim yüksək qiymətləndirilib. Təsadüfi deyil ki, cənab Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Yaşar Əliyevin "Şöhrət" ordeni ilə təltif edilməsi onun fəaliyyətinə verilən qiymətin bariz ifadəsidir. O, həmçinin Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Prezidentin fərdi təqaüdünə layiq görülüb. 2000-ci ildə Müstəqil Dövlətlər Birliyinin "Sodrujestvo" ordeni ilə təltif olunan Yaşar Əliyev 20-dən çox elmi əsərin müəllifi, Ukrayna Akademiyasının tibb doktoru və Moldova Respublikasının fəxri doktorudur.

Nəticə etibarilə, öz səmərəli fəaliyyəti ilə müsbət nümunə yaradan, alicənab şəxsiyyət kimi tanınan və geniş ictimaiyyətin dərin rəğbətini qazanan Yaşar Əliyevin ömür yolu - həyat və fəaliyyəti həm gənclər, həm də bütövlükdə cəmiyyət üçün parlaq nümunədir.

# İşğalçı Ermənistanın qanlı əməllərinin izi

## *Ermənistan silahlı qüvvələri tərəfindən törədilən növbəti vandalizm aktının qurbanı balaca Zəhranın ölümündən bir il ötür*

***Ermənistanın Azərbaycana qarşı ərazi iddiası, onun işğalçılıq yolu ilə Qarabağa qarşı olan təcavüzkar siyasəti uzun müddətdir ki, davam edir. Ötən əsrin 90-cı illərində Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycana qarşı işğalçılıq müharibəsinin başlanması, Azərbaycan ərazilərinin işğalı prosesi və zəbt olunmuş Azərbaycan torpaqlarında qurulmuş işğalçılıq rejimi nəticəsində, dövlətimizə külli miqdarda ziyan dəymişdir. Azərbaycanın erməni hərbi birləşmələri tərəfindən işğal olunmuş ərazilərində törədilmiş vandalizm əməllərinin nəticəsi olaraq, evlər talan edilmiş, sökülmüş, yandırılmış, tarixi abidələr, xüsusilə, qəbiristanlıqlar dağıdılmışdır.***







İşğal olunmuş Azərbaycan rayonlarının talan və qarət edilməsində, o cümlədən, evlərin, abidələrin, qəbiristanlıqlardakı qəbir daşlarının sökülməsində əsir və girovların əməyindən istifadə edilməsi də danılmaz faktdır. Maddi-mədəniyyət nümunələrinin dağıdılması ilə bağlı ciddi dəlil-sübutlar və faktlar mövcuddur ki, bu istiqamətdə də Respublika Hərbi Prokurorluğunda cinayət tərkibli işlərə baxılmışdır. Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı, deportasiya, işğəncə və digər epizodlar üzrə aparılmış istintaq hərəkətləri nəticəsində, sülh və insanlıq əleyhinə müharibə cinayətləri törətmiş 239, banditizm, qəsdən adamöldürmə və digər cinayətlər törətmiş 48 nəfər olmaqla 287 nəfər barəsində təqsirləndirilən şəxs qismində cəlbetmə qərarları çıxarılmışdır. Ermənilərin hiyləgər siyasətinin nəticəsidir ki, Azərbaycan ictimai-siyasi hadisələrin burulğanında öz haqqının müdafiəsində səsini ucaldır və sülməramlı niyyətini reallaşdırır.

Azərbaycan torpaqlarının 20 faizini işğal edən Ermənistan birləkdən və sistemli şəkildə beynəlxalq hüququn norma və prinsiplərini pozaraq, mülki insanları, xüsusilə, qadın və uşaqları hədəfə alır. Hərbi təcavüz nəticəsində insan hüquqları kobudcasına pozulur, etnik təmizləmə siyasəti və terror aktları minlərlə günahsız azərbaycanlının həyatına son qoyur. İnsan hüquqları sahəsində mövcud beynəlxalq sənədlərə məhəl qoymayan Ermənistan müharibə zamanı mülki əhalinin qorunması haqqında 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının, BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının və digər sənədlərin müddəalarını kobud şəkildə pozmaqda davam edir. Ötən ilin iyul ayının 4-də Ermənistan silahlı qüvvələri tərəfindən bir daha Füzuli rayonunun Alxanlı kəndində məskunlaşan mülki əhalinin yaşadığı yaşayış məntəqələrini və mülki obyektlərin qəsdən 80 və 102 millimetrlik minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutulması çirkin siyasətin daha bir nümunəsi oldu. Nəticədə, 1967-ci il təvəllüdlü yaşlı qadın Allahverdiyeva Sahibə və onun 2 yaşlı qız nəvəsi Quliyeva Zəhra həlak oldular, digər mülki şəxs 1965-ci il təvəllüdlü qadın Quliyeva Səlminaz ağır yaralandı və mülki obyektlər dağıdıldı. Təbii ki, mülki şəxslərin münaqişələrdə hədəfə alınması qəbuledilməzdir. 2 yaşlı azərbaycanlı Zəhra Quliyevanın cəbhə xəttində Ermənistanın işğalçı qüvvələri tərəfindən qətlə yetirilməsi dözülməz idi. Bu, bir daha Ermənistan ordusu tərəfindən Azərbaycan ərazilərində törədilən təcavüz və təxribat faktlarını, onların iyrənc siyasətini ortaya qoymuş oldu. Ermənistan silahlı qüvvələri tərəfindən törədilən növbəti vandalizm aktıdır. Bu hadisənin təmas xəttinin beş kilometrliyində baş verdiyi, qanlı cinayətin müharibə qaydalarının pozulması ilə törədilən mülki əhalinin qətli aktı olduğu, hədəfə alınan Alxanlı kəndinin təmas xəttindəki hərbi mövqelərdən uzaq məsafədə yerləşməsinin düşmən qüvvələrinin mülki obyekti məqsədyönlü şəkildə seçməsi sübut edildi. Bütün bunlar dünya ictimaiyyətinə çatdırıldı və dünyanın gözü qarşısında ermənilərin təcavüzkar siyasəti ifşa edildi.

Məlumdur ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini əks etdirən bir sıra materiallar, müntəzəm olaraq, AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinə təqdim edilir və bunun davamı olaraq qeyd olunan təxribat nəticəsində ermənilərin atdığı mərmi də muzeyə verildi. Dinc və günahsız sakinlərin həyatına son qoyan mərmi parçası erməni qəddarlığının daha bir sübutu olaraq muzeydə nümayiş etdirilir və əsrlər boyu daş yaddaşlarda yaşayacaq və ermənının kimliyini bir daha təsdiqləyəcəkdir.

1994-cü ildə atəşkəs rejiminin elan olunmasına baxmayaraq, ermənilərin Azərbaycanda uşaqları qətlə yetirmələri hələ də davam edir. Bu müddət ərzində 32 azərbaycanlı uşaq erməni terrorunun qurbanı olub. Onlardan 13-ü həlak olub, 19-u isə yaralanıb. 2 yaşlı Zəhra Quliyeva da erməni vandalizminin qurbanına çevrildi. Bu, nə insanlığa, nə də beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən hüquqi normalara sığır. Bu faciəli ölüm dünya ictimaiyyəti tərəfindən lənətlənir. Qaniçən ermənilər yaşlılara, qadınlara və uşaqlara zərrə qədər belə mərhəmət etmədən əsl faşist simalarını ortaya qoymuş oldular. Azərbaycanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı haqlı, ədalətli və qətiyyətli mövqeyi dəyişməz olaraq qalır. Ölkəmiz münaqişənin sülh yolu ilə, beynəlxalq hüquq normaları əsasında ərazi bütövlüyümüzün tam bərpası çərçivəsində ədalətli həllinə səy göstərir. Lakin Azərbaycanın xoşməramlı səylərinə, rəsmi Yerevanı diplomatik vasitələrlə işğalçılıq siyasətindən çəkindirməyə yönələn addımlara baxmayaraq, münaqişə hələ də həll olunmamış qalır. 24 il atəşkəs rejimində yaşasaq da, Azərbaycan bu münaqişənin sülh yolu ilə həllinə hələ də nail ola bilməyib. Bu müddət ərzində cəbhədə dəfələrlə atəşkəs rejimi pozulub. İşğalçı Ermənistan beynəlxalq hüququ kobudcasına tapdalayır, dünyanın mötəbər beynəlxalq təşkilatlarının qətnamələrinə belə əhəmiyyət vermir. BMT-nin Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunmasını tələb edən dörd müvafiq qətnamə qəbul edib. Bununla yanaşı, bir çox beynəlxalq təşkilatlar, dünya ölkələri Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal etməsini pisləyiblər və işğalçılıq siyasətindən əl çəkməyə çağırıblar. AŞPA, ATƏT, İslam Konfransı Təşkilatı, NATO-nun Parlament Assambleyası səviyyəsində Ermənistanın işğalçılıq siyasətinə kəskin mənfi münasibət bildirilib. Ermənistanın işğalçılıq, anti-Azərbaycan siyasətini davam etdirməsinə baxmayaraq, onun yaşadığı qorxu hissi də danılmazdır. İndi bizim düşməni torpaqlarımızdan çıxarmağa qadir olan ordumuz var, beynəlxalq miqyasda Azərbaycanın haqq mövqeyi dəstəklənir və ən əsası da, insanlarda düşmənə qarşı mübaribəyə hazır olan yekdil əhval-ruhiyyənin olması, onu deməyə əsas verir ki, Qarabağ torpağı düşmən əsarətindən azad ediləcək. Məlum aprel döyüşləri - Azərbaycan Ordusunun düşmənin təxribatına layiqli cavab verməsi və Lələtəpə yüksəkliyinin düşməndən azad edilməsi tarixi hadisəyə çevrildi. Bu, Azərbaycanın konstruktiv mövqeyi idi, haqq-ədalətin bərpası idi. "Tarixi həqiqət də bizim mövqeyimizi möhkəmləndirir", - deyən Azərbaycan Prezidenti İlham Əliyev hərbi gücün də, iqtisadi potensialın da, siyasi nüfuzun da bizdə olduğunu çıxışlarının birində vurğulayıb: "Yəni biz məsələni istədiyimiz kimi həll edəcəyik. Bizim istəyimiz ölkəmizin ərazi bütövlüyünü bərpa etmək, işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağını qaldırmaqdır. Budur bizim məqsədimiz və biz bu məqsədə doğru irəliləyirik. Aprel döyüşləri bu istiqamətdə çox önəmli tarixi addım olmuşdur".

2016-cı ilin aprel döyüşlərində qazanılan qələbədən sonra Cocuq Mərcanlı kəndində təhlükəsiz yaşayışın bərpa edilməsinə, məcburi köçkünlərin öz ata-baba yurdlarına qaytarılmasına əlverişli şərait yarandı. Dövlət başçısının məlum Sərəncamı ilə kənddə böyük quruculuq işlərinə başlandı. Böyük Qayıdışın başlanğıcı olan bu kəndin bərpası ilə bağlı görülən işlər çərçivəsində fərdi yaşayış evləri, infrastrukturun tikintisi ilə yanaşı, 96 şagird yerlik yeni məktəb binası da tikilib istifadəyə verildi.

Görülən işlər və davamlı səylər nəticəsində ölkəmizin ərazi bütövlüyü yaxın vaxtlarda bərpa ediləcək. Bu yaxınlarda isə 26 il işğal altında olan Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklərin Əlahiddə Ümumqoşun Ordunun əks-həmlə əməliyyatları ilə işğaldan azad edilməsi ordumuzun növbəti uğuru oldu. Qızılqaya və Qaraqaya dağlarında yeni mövqelər ələ keçirildi, Dərələyəz mahalının Arpa kəndində və Mehridərə vadisində düşmən fəaliyyəti nəzarət altına götürüldü. Bu, bir daha göstərdi ki, Cənab Prezidentin vurğuladığı kimi, Azərbaycan torpaqlarının işğalı ilə heç vaxt barışmayacaq, düşmən tapdağı altında olan əzəli torpaqlarımızın azad olunması uğrunda mübarizədən çəkinməyəcəkdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Müxalifətin "işıq" ittihamı nəyə hesablanıb?

*Yaxud Prezident İlham Əliyevin rəhbərliyi və xalqımızın dəstəyilə Azərbaycan dövləti hər zaman radikal müxalifətin və mühacirət tör-töküntülərinin təxribatlarından müdafiə olunacaq və qorunacaq*





Məlum olduğu kimi, 2018-ci il iyulun 3-də Mingəçevir şəhərində yerləşən "Azərbaycan İstilik-Elektrik Stansiyası" MMC-nin yarımstansiyalarından birində baş vermiş qəza nəticəsində respublika ərazisinin böyük hissəsi, o cümlədən, Abşeron yarımadası və Bakı şəhərinin elektrik enerjisi ilə təchizatında problem yaranmışdı. Lakin hadisə baş verəndən dərhal sonra aidiyyati qurumlar fəaliyyətə keçərək, qəzanın nəticələrini aradan qaldıra və respublika ərazisinə enerjinin verilməsini təmin etməyə başlamışdılar. Hətta Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dərhal məsələni nəzarətə götürmüş, qəzanın nəticələrinin qısa zamanda aradan qaldırılması ilə bağlı aidiyyəti dövlət strukturlarına müvafiq tapşırıqlar vermiş, məsələ ilə əlaqədar Xüsusi Dövlət Komissiyası yaratmışdı.

Məhz mövcud şəraitə uyğun olaraq, qısa müddətdə elektrik enerjisi təchizatının kəsilməsinin mənfi təsir göstərə biləcəyi strateji əhəmiyyətli müəssisələr - təhlükəsizlik, yanacaq-energetika, nəqliyyat-kommunikasiya, hərbi, əhalinin təminatı və s. ciddi nəzarətə götürülmüş və onların idarə olunması işi təşkil edilmişdi. Həyata keçirilmiş ciddi tədbirlər nəticəsində, proqnozlaşdırıla biləcək bütün mənfi halların qarşısı alınmış, ən əsası, insan tələfatına yol verilməmişdi. Hazırda da dövlət qurumları qəzanın nəticələrinin aradan qaldırılması və gələcəkdə belə hallara yol verilməməsi istiqamətində zəruri tədbirlər görür, işlərin gedişi barədə əhaliyə müntəzəm məlumat verilir.

Bir sözlə, Mingəçevirdəki İES-də baş vermiş qəzanın, o cümlədən, bu hadisənin müxtəlif sahələrdə yaratdığı problemlərin aradan qaldırılması üçün dövlət orqanları tərəfindən zəruri tədbirlər görülmüş və qısa müddətdə respublika həyatının bütün sahələrində normal iş fəaliyyəti bərpa olunub. Amma əfsuslar olsun ki, bəzi müxalif dairələr nəzarətlərində olan xəbər saytları və sosial şəbəkələr vasitəsilə Mingəçevirdəki İES-də baş vermiş qəzadan və Gəncə şəhərində vəzifəli şəxsə qarşı həyata keçirilmiş silahlı basqından məqsədyönlü şəkildə yararlanmağa çalışmış, dövlət və xalq mənafelərinə zidd mövqe tutaraq, cəmiyyətdə ajiotaj yaratmaq, kütləvi narazılıq formalaşdırmaq və respublikada sabitliyi pozmaq əhval-ruhiyyəsi nümayiş etdiriblər. Həmçinin, özlərini müstəqil sayan bir sıra xəbər saytları da bu eyforik əhval-ruhiyyəyə qoşularaq, dəqiqləşdirilməmiş şayiələri baş vermiş hadisə kimi təqdim edib və vətəndaşları yalan informasiyalarla çaşdırmağa cəhd göstəriblər.

Əlbəttə ki, bütün bunları sifariş əsasında həyata keçirən radikal müxalifət və mühacirət tör-töküntüləri obyektivlik gözləmədən ittihama keçiblər. Əgər onlar, həqiqətən də, real vəziyyətə istinad etmiş olsaydılar, fikirlərində və sözlərində qərəzli olmasaydılar, dünyada baş verən bu tipli hadisələrə də diqqət çəkər və müqayisələr aparardılar. Məsələn, yeni əsrin ilk böyük "blackout"u 2003-cü ilin 14 avqustunda ABŞ və Kanadada baş verib. Əvvəlcə Klivlenddə eynilə bizdəki kimi, isti keçən yay zamanı enerjiyə tələbatın kəskin artması nəticəsində, qızmış naqillərin vaxtında budanmayan ağaclara toxunması nəticəsində qısaqapanma baş vermişdi. Nəticədə, elektrik stansiyasını idarə edən kompüter şəbəkəsi çökmüş, Klivlend Elektrik Stansiyasının fəaliyyəti dayanmış və zəncirvari qaydada 100 digər stansiyanın da sıradan çıxmasına səbəb olmuşdu. Böyük şəhərlərdə, o cümlədən, Nyu-Yorkda metro dayanmış, mobil rabitədə problem yaranmışdı. ABŞ-da 40, Kanadada 10 milyondan çox insan işıqsız qalmış, dəyən ziyan 6 milyard dolları aşmışdı.

2003-cü ilin 18 avqustunda İnquri İES-də baş verən qəza nəticəsində bütün Gürcüstan işıqsız qalmışdı. Xəstəxanalardan tutmuş, metroya qədər hər yerdə böhran yaranmış, hətta mərkəzi televiziya qülləsi də yayımı dayandırmışdı. Həmin ilin 28 avqustunda London və Britaniyanın cənub-şərq rayonları elektriksiz qalmışdılar. Metro və tramvaylar dayanmış, küçə lampaları, svetoforlar söndüyü üçün şəhərdə nəqliyyat xaosu yaranmışdı. 250 min insanı metrodan evakuasiya etmək lazım gəlmişdi. Səbəb - transformator sistemində baş verən qəza idi.

2004-cü il yanvarın 22-də güclü qar yağması nəticəsində İstanbulun Avropa hissəsi bütünlükdə qaranlığa qərq olmuşdu. İyulun 12-də Afinada 6 milyon insan işıqsız qalmışdı. Noyabrın 22-də isə Varşavada baş verən "blackout" nəticəsində, hətta Frederik Şopen adına aeroport da işini dayandırmış, təyyarələri başqa yerlərə istiqamətləndirmək lazım gəlmişdi. Xoşbəxt təsadüf nəticəsində, işıqlar sönərkən, metronun bütün qatarları stansiyalarda olmuşdu və heç kim tuneldə qalmamışdı. 2006-cı ilin 14 avqustunda Tokioda kran gəmisinin Edoqava çayı üzərindən çəkilmiş yüksək gərginlikli elektrik xəttini qırması nəticəsində bütün şəhərdə həyat donmuşdu. Tokiodan başqa, Kavasaki və İokohama şəhərlərində də milyonlarla ev işıqsız qalmışdı. Həmin ilin 5 noyabrında Qərbi Avropada havaların soyuq keçməsi nəticəsində, insanların qızdırıcı cihazlardan çox istifadə etmələri əvvəlcə Almaniyada qəzaya səbəb olmuş, sonra bu, zəncirvari reaksiya şəklində Fransa, İtaliya, Belçika və İspaniyaya yayılmışdı. Əksər magistral sürət qatarları yolda qalmışdılar. 2009-cu il noyabrın 10-da Braziliyada yüksək gərginlikli elektrik xəttində baş verən qəza 50 milyondan çox insanı işıqsız qoymuşdu. Daha sonra zəncirvari qəza Uruqvay ərazisinə də keçmişdi. 2012-ci ilin 31 iyulunda Hindistanda baş verən böyük "blackout" 600 milyondan çox insanı 8 saat ərzində işıqsız qoymuşdu. Metro tam dayanmış, svetoforlar sönmüş, məktəblər və xəstəxanalar işıqsız qalmışdır.

Bütün bunlarla yanaşı, ABŞ-ın Yeni İngiltərə ştatında baş vermiş qəza nəticəsində 650 min ev və biznes mərkəzi elektriksiz qalmışdı. Fillipin, Malta və Misir kimi dövlətlərdə zaman-zaman elektrik kəsintisi saatlarla sürmüşdü. 2015-ci ilin yanvarında nüvə dövləti Pakistanın 80 faizi elektrikdən məhrum olmuşdu. Bu il isə Sudanda, ABŞ-da və Sinqapurda eyni məzmunlu fəlakətlər baş verib. Yaponiyada baş vermiş sunami nəticəsində, AES-in blokunun partlaması nəticəsində insanlar bu günə qədər hələ də əziyyət çəkirlər.

Göründüyü kimi, elektrik stansiyalarında qəzaların baş verməsi dünyada görünməmiş hadisə deyildir. Azərbaycandan dəfələrlə inkişaf etmiş ölkələrdə də bu cür və hətta daha ağır hadisələr baş verir. Amma onların müxalifəti bundan siyasi məqsədlər üçün istifadə etmir. ABŞ-da, Hindistanda, Yaponiyada və başqa ölkələrdə kimlərinsə diqtəsi ilə tör-töküntülər çıxıb dövlətin və rəhbərliyinin əleyhinə çağırışlar etmədilər. Amma çox təəssüflər olsun ki, Azərbaycanın müxalifəti və mühacirətdə olan tör-töküntülər bu hadisəni fürsət bilib, öz dövlətinə və xalqına qarşı hücuma keçdilər. Amma bütün bunlara baxmayaraq, Azərbaycanın "işığı"nın sönməsinə çalışanlar bilməlidirlər ki, Prezident İlham Əliyevin rəhbərliyi və xalqımızın dəstəyilə Azərbaycan dövləti hər zaman radikal müxalifətin və mühacirət tör-töküntülərinin təxribatlarından müdafiə olunacaq və qorunacaq.

***"Səs" Analitik Qrupu***

---



## Bəs sizlər kimlərin nökərlərisiniz?

**RƏFİQƏ**

Bu gün nankorlar və satqınlar çoxdur. Özü də özünü müxalifətçi adlandıranlar içərisində daha çoxdur. Bu kəslər o kəslərdir ki, Azərbaycanın çörəyini yeyib, suyunu içərək böyüyən, ərsəyə gələn, adam içinə girib özünü adam saymağa başlayan, sonradan isə bütün bunları unudaraq, yediyi çörəyə və içdiyi su qabına qudurğancasına şıllaq atıb aşıran nankorlar və satqınlar o qədərdir ki! Xəmirləri daxili və xarici törəmələrin nökərləri olan İsa Qəmbər, Əli Kərimli, Pənah Hüseyn, İqbal Ağazadə, Arif Hacılı, Emin Hüseynli, Bəxtiyar Hacıyev, Leyla Yunus, Xədicə İsmayıl, Gültəkin Hacıbəyli ...və nə bilim bu kimi fərdlər,.. Bu, o fərdlərdir ki, xarici dövlətlərə müxtəlif yollar sayəsində həyasızlıq, şivənlik yolları ilə mühacirət edib, öz ölkəsinə qarşı düşmən mövqeyi göstərsələr də, nəticədə, yaxşı cavablarını alırlar. Elə götürək "Milli Şura"nın üzvü Gültəkin Hacıbəyliyə qurumun binalarına və tədbirlərinə ömürlük giriş qadağası qoyulduqdan sonra yenə də danışmasını, hansı ki, bələlərinin bu millətin adını daşımağa heç bir mənəvi haqqı yoxdur. Həm də ona görə ki, belə "azərbaycanlılar"ın siyasi mühacir olmalarına təkan verən daha bir güc onlarda mövcud olan tükənməz erməniçilik sevdasıdır. Bax, bu tükənməz erməni sevdası olan bu kəslər bu gün erməni deyilən bir bici, nəsli-kökü bilinməzi azərbaycanlı deyilən bir qeyrətlidən daha artıq tutmaqla, əslində, nə qədər mənəviyyatsız olduqlarını göstərirlər.

### Mənəviyyatı, şərəfi və ləyaqəti olmayandan başqa heç nə gözləməyə dəyməz

Yeri gəlmişkən, elə bu aralarda adını "Meydan" TV qoyub, siyasi madyanlıqları vasitəsilə çox sevdiyi, ayaqları altına düşdüyü, hətta filan-fulan yerlərini dəsmalladığı erməni dayılarına nökərçilik edən cinayətkarlardan, hətta qohumları belə imtina etdikləri halda, bu gün G.Hacıbəylinin müdafiəsi ilə bağlı bəyanat verirlər. Bu, təəccüb də doğurmur. Çünki it-itin ayağını tapdalamaz.

Onu da deyək ki, əslində, bu şərəfsiz cinayətkarlar, nankorlar meydanda tək deyil. Yaxınları belə onlardan imtina edirlər. Elə beləlerini unutmaq daha yaxşıdır. Misal üçün, sağlığında Rüstəm İbrahimbəyovdan imtina edən qardaşı Maqsud İbrahimbəyov, Qənimət Zahiddən imtina etmiş qardaşı Mirzə Sakit...

Bu gün onları müdafiə edənlər isə, elə onlar kimi erməniyə dayı, əmi, hətta ata deyən axecepenin baş çaqqalı Əli Kərimli və onun çar-çaqqalları. Və bələlərinə dəstək vermək elə erməniyə qardaş, bacı, dayı, əmi demək kimi bir şeydir. Çünki ermənilər bunları yedirdir, içirdir, lazım gələndə də...

Bütün bunlardan sonra əlavə şərhə də, məncə, heç bir ehtiyac qalmır. Hər halda kor-kor, gör-gördür.

---

## Ermənistanda daha bir səs-küylü həbs

Ermənistanın ümumdünya "Hayastan" fondunun rəhbəri pulların mənimsənilməsi iddiası ilə həbs edilib. SİA Ermənistan mətbuatına istinadən xəbər verir ki, fondun rəhbəri Ara Vardanyan həmin pulları qumara və mərc oyunlarına oynadığını etiraf edib. O, fondun 25 milyon dramlıq (88 min AZN) kredit kartındakı pulları şəxsi istifadəsi üçün qumarxanalarda xərcləyib. Daha sonra Vardanyan xərclənmiş pulları yığılan ianələr hesabına geri qaytarırmış.

Yalnız son həftə üçün kartdan 14 milyon dram (49400 AZN) xərclənilib. 2016-cı ildən 2018-ci ilə kimi isə ümumi 130 milyon dram (459 min AZN) pul xərclənilib. Hazırda fondda sui-istifadə və oğurluq faktları ilə bağlı araşdırmalar aparılır. Həmçinin çəkilən xərclərin düzgün xərclənməsi də araşdırılır. Vardanyana qarşı vəzifə səlahiyyətlərindən sui-istifadə və mənimsəmə iddiaları ilə iş qaldırılıb. Qeyd edək ki, "Hayastan" fondu bütün dünyada yaşayan ermənilərdən təhdid və digər qanuni və qeyri-qanuni yollarla pul yığımını həyata keçirir.

# Elmi-pedaqoji ictimaiyyətin yeni təfəkkürlü nümayəndəsi

*(Həsən Bayramov - 65)*



***Yüksək elmi-pedaqoji peşəkarlığı, geniş və zəngin fəaliyyəti, axtarışları, tədqiqatları ilə tanınmış pedaqoq-alimlərimizdən biri də Həsən Bayramovdur. O, səmimiyyətinə, xeyirxahlığına natiqlik bacarığına, sözdən məharətlə istifadə etmək qabiliyyətinə görə minlərlə insanın dərin hörmət və ehtiramını qazanmış dəyərli bir ziyalıdır. 65 yaşlı alimin arxada qoyduğu illər mənalı bir ömürdən, bu ömrün daşıyıcılarının işıqlı şəxsiyyətindən, elmə, təhsilə, yüksək amallara sərf edilmiş həyatından xəbər verir. Bu gün biz Həsən müəllimin həyat və tale kitabını vərəqlədikcə onun həm nəcib bir insan, gözəl alim, mahir pedaqoq, həmçinin, doğma vətənini böyük məhəbbətlə sevən bir şəxs olduğunu görürük.***

O, həyat fəaliyyətinə doğma kəndində fəhlə kimi başlamış, 1971-1975-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsində oxumuş, oranı fərqlənmə diplomu ilə bitirmiş, aspiranturada saxlanmağı üçün Elmi Şuranın qərarının olmasına baxmayaraq, təyinatla doğma rayona qayıtmış, müəllim, direktor müavini, raykom hüquqlu sovxoz komsomol komitə katibi, qəsəbə sovetinin sədri vəzifələrində çalışmışdır. O, həm də qiyabi olaraq Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (İndiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) aspiranturasında oxumuş, 1989-cu ildə “Azərbaycanda Sovet Pedaqoji Elminin təşəkkülü və inkişafı (1920-1931-ci illər)” mövzusundakı namizədlik dissertasiyasını müdafiə etmiş, 1995-ci ildən ADPU-nun Ümumi pedaqogika kafedrasının dosenti seçilmiş, 2017-ci ildə isə “Çar Rusiyasının Azərbaycandakı təhsil siyasətinin əsas istiqamətləri” mövzusunda yazdığı doktorluq dissertasiyasını müdafiə etmişdir.

1987-ci ildə müsabiqə yolu ilə Naxçıvan Dövlət Pedaqoji İnstitutuna müəllim seçilmiş, 1990-cı ildə məlum Dağlıq Qarabağ hadisələri ilə bağlı ailəsinin Bakıya deportasiya olunması ilə əlaqədar Bakıya köçmüş, Azərbaycan Dövlət Pedaqoji Universitetində elmi işçi, müəllim və dosent işləmiş, 2014-cü ildən Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin direktoru və Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının akademikidir.

O, pedaqoji fəaliyyətə başladığı gündən indiyədək qəlbinin odunu və hərarətini, ömrünün ən qaynar illərini gənc nəslin yüksək ali təhsil almasına, təlim-tərbiyəsinə və maariflənməsinə həsr edib. Onun universitetin Ümumi pedaqogika kafedrasının aparıcı dosenti olaraq pedaqogikanın nəzəriyyəsi və tarixi, eləcə də, təhsil menecmenti ixtisası üzrə 10-dan artıq proqramı, “Təhsili idarəetmənin əsasları” (bakalaviatura və magistratura üçün)”, “Nitq mədəniyyəti”, “İdarəetmənin pedaqogikası və psixologiyası” adlı dərslikləri hələ də aktuallığını saxlamaqdadır. İndiyədək 100-dək elmi, bir o qədər də publisistik məqalələrin müəllifi olması onun elmi məhsuldarlığından xəbər verir.

Onun elmi-pedaqoji fəaliyyəti içərisində proqram yaradıcılığı da xüsusilə diqqəti cəlb edir. İndiyədək ali pedaqoji təhsil müəssisələri üçün müxtəlif fənlər üzrə hazırladığı 20-dək proqram onun nəzəri-pedaqoji peşəkarlığı ilə bərabər praktik-metodiki səviyyəsini də tamamlayır.

Bu proqramlardan “İdarəetmənin pedaqogikası, psixologiyası və metodikası”, “Təhsili idarəetmənin əsasları (bakalaviatura və magistratura üçün)”, “Pedaqogikanın tədrisi metodikası”, “Azərbaycan Respublikasının təhsil sistemi”, “Təhsilin tarixi və fəlsəfəsi” respublikada ilk dəfə hazırlanmışdır. Digər proqramlar da uzun müddətdir ki, ali pedaqoji məktəblərdə uğurla tətbiq edilməkdədir.

Həsən Bayramovun pedaqogikanın tarixi və nəzəriyyəsi, təhsilşünaslıq, peşə ixtisas təhsili ilə bağlı, eləcə də, milli-müstəqillik dövrü, xüsusilə, onun Ulu Öndər Heydər Əliyev mərhələsinin təhlilinə həsr edilmiş çoxsaylı elmi-pedaqoji və ictiami-publisistik məqalələri həmişə yenilikçi mahiyyəti ilə seçilməkdədir.

Son illər Azərbaycanda təhsilin, eləcə də, peşə təhsilinin inkişafına yönəlmiş kompleks islahatlar, qabaqcıl ideyalar və layihələr cəmiyyətimizin inkişafına böyük töhfələr verməkdədir. Bu mənada, peşə-ixtisas təhsili sahəsində dövlət siyasətinin həyata keçirilməsini təmin edən və əlaqələndirən, Təhsil Nazirliyinin tabeliyindəki ilk peşə-ixtisas təhsili müəssisələrinin fəaliyyətini təşkil edən icra orqanının - Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təmin edilməsi, “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”, “Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi”, “Peşə təhsili haqqında” Azərbaycan Respublikasının Qanunu” və s. hüquqi-normativ sənədlərin qəbulu, təşkilati tədbirlərin həyata keçirilməsi bu sahənin yenidən qurulmasına təkan verməkdədir ki, burada Həsən müəllimin rəhbərlik etdiyi mühəndis-pedaqoji kollektivin də böyük zəhməti vardır.

Elmi-pedaqoji fəaliyyətinin son illərini peşə-texniki təhsilində islahatlara həsr etmiş Həsən müəllim, peşə təhsilinin inkişafının əsas prioritet məsələlərdən olduğunu nəzərə alaraq, son üç ildə 20-dək elmi-metodiki məqalələrlə çıxış etmiş, “Peşə təhsili haqqında düşüncələr” adlı monoqrafiyasını nəşrə təqdim etmişdir. O, Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin direktoru kimi, son illər peşə təhsili sahəsinin modernləşməsinə də öz töhfəsini verməkdə və tədqiqatları ilə bu prosesdə yaxından iştirak etməkdədir.

Həsən Bayramov həm də Binəqədi rayonunda Dairə Seçki Komissiyasının sədri olaraq respublikanın ictimai-siyasi həyatında, demokratik cəmiyyət quruculuğu prosesində fəal iştirak edir. Ona bu şərəfli ictimai-siyasi fəaliyyətində uğurlar, davamlı yaradıcılıq axtarışları və mənalı ömür arzulayaq.

**Hümeyir Əhmədov**
**Azərbaycan Respublikasının Təhsil İnstitutunun**
**şöbə müdiri,**
**pedaqogika üzrə elmlər doktoru,**
**professor,**
**Rusiya Təhsil Akademiyasının xarici üzvü,**
**RTA-nın əməkdar elm və təhsil xadimi**

# Təşkilatçı müəllim



Elə adamlar var ki, onların həyatını işlədikləri, qaynayıb-qarışdıqları kollektivin həyatından ayrıca təsəvvür etmək olmur. Belə adamların tərcümeyi-halı da ömürlük bağlandıqları iş yerinin tərcümeyi-halına qovuşub, onun tarixinə çevrilir. Fərdiyyətçiliyə qapanıb ümumi ictimai həyatdan təcrid olan adamlar öz peşə və fəaliyyəti sahəsində böyük uğurlar qazansalar belə, onların cəmiyyət üçün ictimai dəyəri şəxsi dəyərindən kənara çıxa bilmir. Uzun illərdən bəri həyatını pedaqoji universitetin həyatı ilə bağlayan, həmişə fəal ictimai mövqeyi ilə seçilən, bir-birini əvəz edən neçə-neçə tələbə nəslinə ingilis dilini sevə-sevə tədris edib öyrədən bacarıqlı təşkilatçı, səriştəli pedaqoq kimi özünü təsdiq edən müəllimlərdən ən öndə gedəni Cəfərova Taisədir. Taisə müəllimə 1946-cı ildə Qazax rayonunda ziyalı ailəsində dünyaya göz açıb. Orta məktəbi orada bitirib. 1964-cü ildə M.F.Axundov adına Xarici Dillər İnstitutunun ingilis və azəri dilləri fakültəsinə daxil olub 1969-cu ildə müvəffəqiyyətlə təhsilini başa vurub, Pedaqoji İnstitutda əmək fəaliyyətinə başlayıb. İlk gündən özünü təşəbbüskar, işgüzar və eyni zamanda, yorulmaz təşkilatçı kimi göstərərək, institutun ictimai həyatında fəal rol oynamışdır.

1970-ci illərdə respublikamızda geniş vüsət almış tələbə inşaat dəstələrinin yaradıcılarından olub. 1980-1981-ci illərdə tələbə inşaat dəstəsində komandir, zona üzrə komissar olmuşdur. Azərbaycanın müxtəlif bölgələrində pambıq yığımında tələbələrlə birlikdə iştirak etmişdir. Sosializm yarışının qalibidir. Milli bayramlarla bağlı keçirilən tədbirlərdə həmişə fəal iştirak etmişdir.

Onun dərslikləri və elmi məqalələri müntəzəm çap olunur. Çox səriştəli bir metodist kimi məşhurdur. Eyni zamanda, şairədir, ingilis və Azərbaycan dillərində şeir yazır.

Tələbələrlə sıx ünsüyyətdədir. Metodiki məqalələri ilə dövri mətbuat səhifələrində çıxışlar etmişdir. Belə bir müəllimə uzun ömür, can sağlığı arzulayırıq. Yazılarınız, fəaliyyətiniz axırıncı yox, axarıncı olsun. Həmişə sizi sevimli tələbələrinizlə bir arada görək.

İyun ayının 6-da Taisə xanımın ad günü idi. Onu bütün kollektiv adından təbrik edirik.

### Yetdi

*Bir ana vermişdi Yaradan mənə,*
*Dərdlərə dözmədi, durmadı getdi!*
*Bir ürək vermişdi ruzigar mənə,*
*Həyatda iki gün vurmadı getdi!*

*Şimşək tək harada alışıb keçib!*
*Möhnət şərbətini qəfildən içib,*
*Özünə bir yaxın həmdəm də seçib,*
*Həyatda bir gün görmədi getdi!*

*Bəxt yatıb dərd-qüssə ayaq üstədi,*
*Kədər dalğa-dalğa, dəstə-dəstədi,*
*Düşmədi yatağa, deyək xəstədi,*
*O, son beşiyini yormadı getdi.*

*Hər kəsə də hörmət bəsləyən anam,*
*Qızından inciyib küsməyən anam,*
*Məni hamıdan çox istəyən anam,*
*Son məqam halımı sormadı getdi.*

***Minayə Cəfərova,***
***ADPU-nun müəllimi***

# Robert Koçaryan istintaqa çağırılıb



***Ermənistanın sabiq prezidenti Robert Koçaryan 2008-ci il martın 1-də kəskin etirazlar zamanı insanların qətlə yetirilməsi barədə iş çərçivəsində şahid qismində istintaqa çağırılıb. AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, bu barədə Ermənistanın xüsusi istintaq xidmətinin rəhbəri Sasun Xaçatryan brifinqdə məlumat verib.***

“Bildirişin ona çatıb-çatmadığını bilmirəm, lakin biz bildiriş göndərmişik. O, istintaqa şahid kimi çağırılıb”, - deyə xidmətin rəhbəri qeyd edib. O vurğulayıb ki, sözügedən istintaq işi çərçivəsində sabiq müdafiə naziri, 2008-ci il martın 1-də respublika silahlı qüvvələri baş qərargahının rəisi olmuş Seyran Ohanyan da şahid qismində sorğu-sual edilib.

İyulun 3-də Yerevanın ümumi yurisdiksiyalı məhkəməsi insanların qətlə yetirilməsi barədə iş çərçivəsində Ermənistanın sabiq naziri, general-polkovnik Mikael Arutyunyanın həbsi barədə sanksiya verib. Hərbçi 2008-ci il martın 1-də ölkədə konstitusiya sistemini pozmaqda ittiham edilir. İstintaqın versiyasına görə, Arutyunyan və digər rəsmi şəxslər konstitusiyanı pozaraq, Ermənistanda hərbi vəziyyət elan edib, dinc nümayişçilərə - ölkə vətəndaşlarına qarşı ordudan istifadə ediblər. Arutyunyan axtarışa verilib, məhkəmədə onun həbsi barədə vəsatət qaldırılıb.

Xatırladılıb ki, Ermənistanda 2008-ci il fevralın 19-da prezident seçkilərindən sonra ölkədə etiraz aksiyaları keçirilib, insanlar seçkilərin rəsmi yekunları ilə razılaşmadıqlarını bildiriblər. Küçə aksiyalarını Ermənistanın birinci prezidenti Ter-Petrosyanın tərəfdarları təşkil ediblər. Mitinqçilərlə hüquq mühafizə orqanlarının nümayəndələri arasında qarşıdurma nəticəsində 8 nümayişçi, 2 polis ölüb, 33 polis əməkdaşı xəstəxanaya yerləşdirilib. Təxminən 230 nəfər tibbi yardım üçün həkimə müraciət edib.

## Sarkisyanın evində əməliyyat keçirilib



Ermənistanın keçmiş prezidenti Serj Sarkisyanın qardaşı Aleksandr Sarkisyanın evində əməliyyat keçirilib. SİA Ermənistan mətbuatına istinadən xəbər verir ki, Ermənistan Milli Təhlükəsizlik xidmətinin əməkdaşları Sarkisyanın evində xüsusi tədbir keçiriblər. Qeyd edək ki, Aleksandr Sarkisyan iyunun 25-də hüquq mühafizə orqanları tərəfindən saxlanılıb. Onun üzərində odlu silah aşkarlansa da, silah qanuni olub və o buraxılıb.



# AXCP KXCP-nin hədəfində

## Mirmahmud Mirəlioğlu: "Əli Kərimli: xəyanət və satqınlıq simvoludur"

***Bu gün Azərbaycanın ən böyük sərvəti sabitliyidir. Ancaq AXCP sədri Əli Kərimli bu böyük sərvəti pozmaq üçün ən iyrənc vasitələrdən istifadə edir. O, həyasızcasına xəyanət və satıb-satılmağın daha vacib olduğunu dəfələrlə sübuta yetirib. Bir də heç sübuta yetirməyə də ehtiyac yoxdur.***

Çünki xalq dağıdıcı müxalifətin lideri iddiasında olan Ə.Kənimlini satqınlıq simvolu olmasını 25 ilə yaxındır ki, görür və onları qəbul etmir. Elə bu səbəbdən də, AXCP və "Milli Şura"nın keçirdiyi mitinqləri fiasko ilə başa çatır. Sözügedən məsələ ilə bağlı KXCP sədri Mirmahmud Mirəlioğlu bildirir ki, bu uğursuzluğun səbəbini "interneti kəsmişdilər"dən tutmuş, "mitinqə gələnləri Bakıya girişdə tuturdular" kimi yalanlarla ört-basdır etməyə çalışan Ə.Kərimli zavallı açıqlamaları, psevdoalim Cəmil Həsənli isə az qala lüzumsuz bəyanatları ilə gündəmdə qalmağa çalışırlar.

**Mirmahmud Mirəlioğlu: "Əli Kərimli müxalifətdaxili parçalamaq siyasətində pərgardır və bu kimi oyunların bütün konturlarına bələddir"**

"Bu, o Əli Kərimlidir ki, müxalifətdaxili parçalamaq siyasətində pərgardır və bu kimi oyunların bütün konturlarına bələddir"- bu sözləri KXCP sədri Mirmahmud Mirəlioğlu bildirib. O, vurğulayıb ki, AXCP sədri indi də sosial şəbəkələrdə KXCP-ni işğal etmək, üçün bütün vasitələrə əl atır: "Lakin bu partiyada Ə.Kərimliyə və onun AXCP-sinə qarşı da dirənişlərin göstəriləcəyini istisna etmək olmaz. Bu səbəbdən də cari yayda ənənəvi müxalifətin daxilindəki savaşın isti fəslin özü kimi qızmar keçəcəyini proqnozlaşdırarsaq, heç də yanılmarıq".

**Niyaməddin Orduxanlı: "Lalə-Şövkət Hacıyeva Əli Kərimlinin etdiyi xəyanətə görə demişdi ki, əyninə şalvar geyinən hər kişiyə kişi demirlər"**

Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədr müavini Niyaməddin Orduxanlının sözlərinə görə, Ə.Kərimlinin keçirdiyi mitinqlər bir daha AXCP sədrinin gülünc vəziyyətə düşdüyünü sübut edir: "Azərbaycan xalqı Ə.Kəriminin, hətta "sosial aksiya" adı ilə təyin etdiyi mitinqə belə dəstək vermir. Bu adam mitinqi siyasi deyil, sosial aksiya kimi təqdim edirdi. Bu adam istəyirdi ki, əhalinin bu vəziyyətdə onun çağırışına dəstək verib-verməyəcəyini görsün. Ancaq unudur ki, xalq Əli Kərimlini son 25 ildə çox yaxşı tanıya bilib. Xalq yaxşı bilir ki, Əli Kərimlinin Əbülfəz Elçibəyə etdiyi xəyanət hansı formada olub. Bu adam kimlərə xəyanət etməyib? Hər kəsi öz maraqlarına qurban verənin biridir. Vaxtilə Lalə-Şövkət Hacıyeva Əli Kərimlinin etdiyi xəyanətə görə demişdi ki, əyninə şalvar geyinən hər kişiyə kişi demirlər".

N.Orduxanlı onu da bildirib ki, Ə.Kərimli Azərbaycan siyasətinə xəyanəti gətirən bir insandır: "Eyni zamanda, o, Azərbaycanda sosial şəbəkələrə saxtakarlığı gətirib. Saxta profillərlə insanları təhdir edir və təhdid edir, özünə tərəfdar toplamağa çalışır. Ona görə də, Azərbaycan xalqı Əli Kərimliyə dəstək vermir".

**R.HÜSEYNOVA**

# Emin Milli, Leyla Yunus və Xədicə İsmayıl bir alətdirlər

## Siyasiləşmiş QHT rəhbərləri bir-birini ifşa edirlər

***Avropada mühacir həyatı yaşayan Emin Hüseynov "Meydan" TV rəhbəri Emil Millini, Leyla Yunusu, Xədicə İsmayılı maliyyə vəsaitlərini mənimsəməkdə, satqınlıqda və xəyanətkarlıqda günahlandırıb. Sual yaranır: siyasiləşmiş QHT rəhbərləri arasında nə baş verir? Niyə onlar bir-birlərinə qarşı ən kəskin ittihamlarla çıxış edirlər? Söhbət etdiyimiz müsahiblərimiz tərəflərarası qarşıdurmanı onlara maddi və mənəvi dəstək göstərən xarici maraqlı dairələrin qızışdırdığını bildiriblər.***



**Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyinin sədri Anar Xəlilov:**

- Bu insanların xarici dairələrə satılmaqda bir məqsədi olub: maliyyə vəsaiti qazanmaq. Bu insanlar siyasi alver edərək, beynəlxalq qurumlardan pul vəsaitləri əldə etmək və varlanmaq missiyasını daşıyırlar. Bu dəstənin də başında Avropada anti-Azərbaycan mövqeli təşkilatlarla münasibətləri yaxın olan Xədicə İsmayıl dayanır. Çox böyük ehtimalla növbəti qrantı alan bu dəstə pul bölgüsündə ortaq məxrəcə gələ bilməyib. Buna görə də, aralarında ixtilaf başlayıb. Çünki bu insanları bir-biri ilə bağlayan heç bir ideya birliyi yoxdur. Yalandan vətən, millət və insan haqları çığıraraq, pul qazanmaq məqsədi ilə bir aradadırlar. Ona görə də, lazımi gözləldikləri məbləğ onlara çatmayanda, bu cür qarşıdurmalar baş verir. Bu insanları ifşa etmək, beynəlxalq qurumlarda tanıtmaq lazımdır ki, onlar vəsaitlərinin boş yerə xərcləndiyini və hansısa əməkdaşlarının korrupsiya ilə məşğul olduqlarını bilsinlər.

**"Paralel" qəzetinin baş redaktoru Tapdıq Abbas:**

- Azərbaycandan gedərək, mühacir həyatı yaşayan Emin Hüseynovun fəaliyyətinin əsas istiqamətlərinin Azərbaycana qarşı qara yaxmaqdan ibarət olduğu hər kəsə məlumdur. O, xeyli zamandır ki, xaricə köçüb və orada da bacardıqca ölkəmizə qarşı təxribat törətməklə, ölkə iqtidar haqqında yalan və böhtan yaymaqla məşğuldur. Emin Hüseynovun son zamanlar "Meydan" TV-nin rəhbəri Emin Milli, Leyla Yunus və Xədicə İsmayıla qarşı maliyyə vəsaitlərini mənimsəməkdə, satqınlıqda və xəyanətkarlıqda ittiham etməsinin səbəblərini dəqiq söyləmək çətin olsa da, bu ittihamları yalnız onunla əlaqələndirmək olar ki, xarici düşmənlərimizin əlində ölkəmizə qarşı alətə çevrildikləri şübhə doğurmayan bu insanlar öz xarici himayədarlarından və ağalarından aldıqları maliyyəni bölüşdürmək məsələsində də bir-birinə kələk gəlməklə məşğuldurlar.

**GÜLYANƏ**

# Müsavat partiyasının növbəti bəlalı qurultayı

## Bu bəla Arif Hacılının başqanlığa əlvida deməsilə nəticələnə bilər

Bəlli olduğu kimi, artıq neçə müddətdir ki, Müsavat partiyası ilin sonunda qurultay keçirməyi planlaşdırıb. Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsi yaradılıb ki, bura da partiyanın başqanı Arif Hacılı, partiyanın sabiq başqanı, məclis üzvü İsa Qəmbər, Müsavat başqanının müavinləri Fərəc Kərimli, Səxavət Soltanlı, partiya başqanının sabiq müavinləri Elman Fəttah, Yadigar Sadıqov, Tofiq Yaqublu, divan üzvləri Osman Kazımov, Alya Yaqublu, İkram İsrafil, mərkəzi nəzarət-təftiş komissiyasının sədri Sevinc Hüseynova və başqaları təmsil olunur.

Müsavatda baş verən funksionerlərarası qarşıdurmalar onu deməyə əsas verir ki, qurultaya qədər təşkilat sıralarından bir neçə dəfə istefalar baş verəcək. Səbəb də, A.Hacılının başqanlığını ilk gündən qəbul etməyərək, onun təsirindən qurtulmaq üçün Müsavat sıralarını tərk edirlər və edirlər. Belə ki, başqan müavinləri E.Fəttah, T.Yaqublu, Y.Sadıqov, Müsavatın əvvəlki qurultayından sonra isə Vurğun Əyyub, Qubad İbadoğlu, Səxavət Əlisoy və Tural Abbaslı kimi insanlar da etiraz edərək partiyadan istefa verənlərdir. Bu isə, onu deməyə əsas verir ki, növbəti qurultayda da növbəti gedişlər qaçılmazdır.

**Arif Hacılı növbəti qurultayda posta əlvida deyəcək**

Müsavtın ötən qurultayından sonra baş verən daxili ziddiyyətlər başqan A.Hacılının postda qalmasını şübhə altına alır. Güman edilir ki, hazırkı başqan A.Hacılı növbəti qurultayda postu ilə vidalaşacaq. Onun partiya funksionerləri tərəfindən dəstəklənmədiyi, bu səbəbdən, Müsavatın müxalif düşərgədə gücsüz bir təşkilata çevrildiyi də bildirilir.

Məsələ ilə bağlı Müsavat partiyası mərkəzi icra aparatının rəhbəri Gülağa Aslanlı mətbuata açıqlamasında bildirib ki, qurultaya hazırlıq üzrə təşkilat komitəsi yaradılıb və komitə qurultayın keçirilməsi üçün lazım olan tədbirləri həyata keçirməlidir: "Təbii olaraq qurultayda Müsavat partiyasının sədri də seçiləcək. Bu, partiyamızın nizamnaməsinin tələbidir. Lakin hər şeyin bir zamanı var. Bu baxımdan, sədrlik üçün namizədlərin irəli sürülməsinə start verilməyib. Yerlərdə konfranslar keçiriləndən sonra qurultayın zamanı və məkanı məlum olacaq".

G.Aslanlı partiyanın parçalanması ilə bağlı səsləndirilən fikirlərə də münasibət bildirib: "Müsavat partiyasının parçalanması istəyində olanlar və partiyanı tənqid edənlər kifayət qədərdir".

Bu barədə daha çox ötən qurultaydan sonra, onun nəticələrini tanımayan etirazçılar - Q.İbadoğlunun sədri olduğu "ADR" hərəkatının fəalları, həmçinin, Tural Abbaslının sədri olduğu "Ağ Partiya" təmsilçiləri iddia edirlər ki, hələ 2014-cü ildə onlara qoşulmaq istəyən müsavatçılar var idi və son anda onların bəziləri istefa verməyə tərəddüd etdilər. T.Abbaslı bildirib ki, A.Hacılının başqanlığı dövründə istefalar baş verdi və tərəddüd edənlər onların təşkilatlarına transfer olundular: "Yerdə qalanlar isə hələ də Müsavat üzvü olaraq, təşkilat sıralarında qalmaqda davam edirlər. Bu davamiyyətin isə sonu, məhz 2018-ci ilin axırlarında olacaq". Beləliklə, Müsavat partiyasının növbəti qurultayının 2014-cü ildə keçirilən səsli-küylü və qalmaqallı qurultayından daha kəskin olacağını düşünmək mümkündür. Cərəyan edən hadisələr fonunda, xüsusilə, gedənlərin A.Hacılıya qarşı səsləndirdikləri fikirləri əsasında indidən belə qənaətə gəlmək mümkündür.

Bununla da, Müsavatda baş verən son olaylar, belə nəticəyə gəlməyə zəmin yaradır ki, A.Hacılı əlində olan bütün rıçaqlarını işə salaraq, yenidən başqan seçilmək iddiasındadır. Ancaq digər amil isə sabiq başqan İ.Qəmbərin baş verənləri susqunluqla izləməsidir. Bu amil isə partiya daxilində real parçalanmalara səbəb olduğunu təsdiqləyir. Lakin bütün bunlara baxmayaraq, partiyadaxili proseslər, onu deməyə əsas verir ki, Müsavat partiyasının növbəti bəlalı qurultayı Arif Hacılının posta əlvida deməsilə nəticələnə bilər.

**Rəfiqə HÜSEYNOVA**

# AXCP sədri hələ də"siyasi məhbus" manipulyasiyası edir

## *Yaxud Əli Kərimlinin kirli məqsədi çoxdan bəllidir*

***AXCP sədrinin zaman-zaman "siyasi məhbus" manipulyasiyası altında var-gəl edib, əl-ayağa düşməsi yeni məlumat deyil. Xüsusilə, nəzarəti altında saxladığı mediası və sosial şəbəkələrdəki qrupları vasitəsilə siyasi dividend qazanmaq cəhdləri sayəsində "siyasi məhbus" oyunbazlığına girən Ə.Kərimli növbəti dəfə həmin oyunbazlığını təkrarlayıb. Guya ölkədə "siyasi məhbus"ların olduğunu iddia edən AXCP sədri, çox yəqin ki, bu məsələ üzərində mühacir biznesini genişləndirmək məqsədini daşıyır. Ancaq məsələ yalnız bunda deyil...***



### "Siyasi məhbus" siyahısının gerçək görünməsi üçün AXCP sədri özünə ciddi rəqib hesab etdiyi başqa müxalifət liderlərinin də adlarını salıb

Digər bir məsələ Ə.Kərimlinin sözügedən manipulyasiyada pərdəarxası, yeni görünməyən məqamlarıdır. Məsələn, o, "siyasi məhbus" siyahısına bir çox cinayətkarların adlarını salsa da, onların arasında olan bir neçə nəfərin azadlığa çıxmamasının tərəfdarıdır. Daha dəqiq desək, ictimaiyyətə tanış olmayan isimlərin də yer aldığı qondarma siyahıda əsas məqsəd, məhz onların ailələrindən pul qoparıb, sonradan həmin şəxsləri Qərb ölkələrinə mühacirətə göndərməkdən ibarətdir. Bu baxımdan, "siyasi məhbus" siyahısının gerçək görünməsi üçün AXCP sədri özünə ciddi rəqib hesab etdiyi başqa müxalifət liderlərinin də adlarını salıb.

Dəfələrlə sübuta yetirilib ki, "Milli Şura" və "Yurd" üzvləri rəhbərlik səviyyəsində həmin şəxslərin azad olunmasına qarşı kampaniya aparıblar. Yəni Ə.Kərimli açıq formada siyasi məhbusların azad edilməsini istəmir. Xüsusilə, Ə.Kərimli və ona yaxın qaragüruhçular dəstəsi "REAL" hərəkatının sədri İlqar Məmmədovun, "Milli Şura" üzvü Seymur Həzinin, hətta AXCP sədrinin müavini Fuad Qəhrəmanlının azad olmasını istəmirlər. Yəni bütün bu çabalamalar heç də səbəbsiz deyil.

Misal üçün, bəllidir ki, "REAL" hərəkatı idarə heyətinin son toplantılarının birində təşkilatın partiyaya çevrilməsi barədə qərar qəbul edilib. Hətta bu ətrafda hərəkat daxilində müəyyən anlaşılmazlıqlar da yaşanmışdı. Ancaq fakt budur ki, "REAL"-ın partiyaya çevrilməsi nəticə etibarilə həm AXCP-yə, həm də "Milli Şura"ya qurşaqdan aşağı vurulmuş zərbə kimi də qiymətləndirilə bilinər. Söz yox ki, "REAL" rəhbərliyinin bu qərarı Ə.Kərimli və "Milli Şura"nın marağında deyil. Çünki 2013-cü il prezident seçkilərindəki fiaskodan sonra "Milli Şura"nın əvvəlkindən daha da zəifləməsi prosesi başladı ki, Ə.Kərimli bunun üzündən müxalifət daxilindəki olan-qalan nüfuzunu da qeyb etmiş oldu.

Beləliklə, İ.Məmmədovun həbsdənçıxma ehtimalı, eyni zamanda, "REAL"-ın partiyaya çevrilməsi Ə.Kərimliyə görə, özünə qarşı güclü rəqibin ortaya çıxması deməkdir. Ə.Kərimli son zamanlarda AXCP və "Milli Şura" ətrafında baş verənlərdən dolayı xeyli nüfuz itirib və bu, yeni müxalifətin ortaya çıxması zərurətini yaradıb. "REAL" partiyaya çevrilsə, Ə.Kərimlinin müxalifət daxilində manevrləri bir qədər də azalacaq. Paralel olaraq, İ.Məmmədovun həbsindən sonra Qərbdə artan nüfuzu və Avropa insan haqları təşkilatları rəhbərlərinin "REAL" sədri ilə intensiv formada keçirilən görüşləri Əli Kərimli üçün başqa bir zərbədir. Buna görə də, belə bir şəraitdə İ.Məmmədovun həbsdə qalması Əli Kərimlinin işinə yarayır.

### Əli Kərimli Seymur Həzini də azadlıqda görmək istəmir, çünki o, AXCP sədrliyinə iddialıdır

Əli Kərimli və "yurd"çular eyni zamanda, S.Həzinin də həbsdən çıxmasını arzulamırlar. Çünki AXCP-nin başıbəlalı qurultayından sonra təşkilat faktiki əldən çıxdı və bu, o fonda baş verdi ki, Ə.Kərimliyə qarşı narazılıq edənlər ondan təşkilatda gəncləşdirmə siyasətini aparmalarını tələb edirdilər. İndi Ə.Kərimli ilə qalan azsaylı adamlar da ondan gəncləşdirmə siyasətinin aparılmasını tələb edir. Bu prosesdə iştirak edənlərdən biri də məhbəsdə olmasına baxmayaraq, Əbülfəz Qurbanlının istefasından sonra "Yurd"da boy göstərən və nüfuz dairəsini genişləndirən S.Həzidir. Ə.Qurbanlının verdiyi gözlənilməz istefası və Natiq Ədilovun Fransaya qaçması S.Həzinin qrupun yeni gənc lideri olmaq yolunda maneələri aradan qaldırdı. Ə.Kərimli ilə müqayisədə bu gün də "Yurd" və "Milli Şura"nın gənc və orta nəsli arasında S.Həzinin nüfuzu güclüdür. Əldə etdiyimiz məlumatlara görə, S.Həzinin özü də AXCP-nin sədri olmaq təkliflərinə müsbət baxır. Təbii ki, onun bu iddiası Ə.Kərimlinin ümumiyyətlə, maraqlarına uyğun deyil. Belə bir vəziyyətdə də S.Həzinin həbsdən çıxması Ə.Kərimlinin, müxalifət adı ilə imitasiya etməsi üçün son resurslarının da əlindən çıxmasını rəsmiləşdirəcək.

### Fuad Qəhrəmanlının Əli Kərimliyə qoyulası kifayət qədər minnəti var

F.Qəhrəmanlıya gəlincə, bəllidir ki, AXCP sədrinin müavini, məhz onun tələsinə düşərək, hazırda "Nardaran işi" üzrə mühakimə olunub. Belə bir vəziyyətdə Ə.Kərimli yaxşı bilir ki, əgər Qəhrəmanlı həbsdən çıxarsa, onun qarşısına kifayət qədər minnətlər qoyub, hətta sədrliyə iddialı ola bilər. Çünki uzun illər AXCP-də fəaliyyət göstərməsinə rəğmən, F.Qəhrəmanlı Ə.Kərilmi tərəfindən heç vaxt mükafatlandırılmayıb. Hətta zaman-zaman küncə belə sıxışdırılıb. İndi isə hər şey başqa cür ola bilər. Bu baxımdan, AXCP sədrinin növbəti "siyasi məhbus" oyunbazlığı, bilavasitə onun şəxsi maraqlarına hesablanıb. Sadəcə, onun qarşısını kəsən bir neçə baryer var ki, bundan yayınmağa çalışır. Lakin hər şey onun istəmədiyi kimi də baş verə bilər. Məsələn, adları çəkilənlər azadlığa da buraxıla bilərlər. Bax, onda AXCP sədrinin "siyasi məhbus" oyunbazlığı başa çata bilər. Çünki onların hər biri Ə.Kərimli üçün ciddi rəqib və siyasi konkurentdirlər.

***Rövşən NURƏDDİNOĞLU***

# "Nar" şəbəkəsi tam gücü ilə abunəçilərə xidmət göstərir

Elektrik enerjisinin təminatında yaranmış fasilələrlə əlaqədar olaraq, "Nar" abunəçilərin kəsintisiz və yüksəkkeyfiyyətli rabitə xidmətləri ilə təmin edilməsi üçün zəruri addımlar atıb. Son iki gün ərzində operatorun və tərəfdaş şirkətlərin texniki heyəti sahə və ofislərdə növbə ilə 24/7 rejimində çalışır. Mobil xidmətlərin sabitliyini təmin etmək üçün sahələrdə generatorlardan istifadə olunur. Görülmüş təxirəsalınmaz tədbirlər nəticəsində "Nar" 2G/3G/4G şəbəkələrinin müvafiq stabillik göstəricisi təmin edib.

Qeyd edək ki, iki gün öncə başlayan elektrik enerjisi kəsintilərinə baxmayaraq, "Nar" şəbəkəsinin əksər hissəsi bütün ölkə ərazisində abunəçilərə xidmət göstərməyə davam edib. Mobil rabitə xidmətlərinin göstərilməsində çətinliklərin yaşanmaması məqsədilə paytaxt və bölgələrdə mövcud olan bütün resurslar səfərbər edilib, şəbəkənin normal rejimdə fəaliyyəti təmin edilib. "Nar" bu kimi vəziyyətlərdə yarana biləcək çətinliklərin qarşısının alınması üçün önləyici tədbirlər görməyə davam edir.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib.

# Bakcell bütün ölkə ərazisində mobil rabitə xidmətinin dayanıqlığını təmin edib

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti ölkə ərazisində elektrik enerjisinin təchizatı ilə bağlı yaranmış çətinliklər zamanı mobil rabitə xidmətlərinin dayanıqlığını maksimum şəkildə təmin edib. "Abunəçilərini yüksək keyfiyyətli mobil rabitə xidməti ilə təmin etmək üçün bu günlər ərzində xüsusi rejimdə çalışmışıq. Ən son texnologiya ilə təchiz olunmuş Bakcell şəbəkəsinin texniki imkanları sayəsində dayanıqlı səs və internet xidmətlərini təmin etməyə nail olmuşuq", deyə Bakcell şirkətinin baş icraçı direktoru Nikolai Beckers bildirib.

"İyulun 2-dən 3-nə keçən gecə Bakcell şəbəkəsi və şirkətin bütün müvafiq strukturları dərhal gücləndirilmiş iş rejiminə keçirilib. Mobil xidmətlərin kəsintisiz fəaliyyətinin təmin edilməsi istiqamətində görülmüş qabaqlayıcı tədbirlər çərçivəsində ölkənin paytaxtında və elektrik enerjisinin təchizatı ilə bağlı çətinliklər müşahidə olunan digər bölgələrində yerləşən mobil baza stansiyalarının elektrik təchizatında fasilələrin qarşısının alınması məqsədilə şirkət tərəfindən çoxlu sayda əlavə enerji qurğusu, yüzlərlə stasionar və portativ generator işə salınıb. Həmçinin, "Bakcell"in müvafiq partnyorları və podratçı şirkətləri tərəfindən prosesə əlavə işçi qüvvəsi cəlb olunub.

Bakcell şirkətinin texniki personalı gücləndirilmiş rejimdə fəaliyyət göstərərək 24 saat ərzində mobil şəbəkəyə nəzarət edir və xidmət keyfiyyətinin monitorinqini həyata keçirir. Nəticədə, ucqar ərazilər daxil olmaqla ölkənin bütün bölgələrində "Bakcell"in mobil baza stansiyaların fasiləsiz işi təmin olunur.

Xidmət keyfiyyətinin ölçülməsi və abunəçilərin bütün sual və müraciətlərin dərhal cavablandırılması üçün "Bakcell"in məlumat mərkəzi və sosial media kanalları da həmçinin 24 saat ərzində gücləndirilmiş rejimdə fəaliyyət göstərir. Bakcell şirkəti şəbəkənin fasiləsiz fəaliyyətinin təmin edilməsinə yönəlmiş tədbirləri davam etdirəcək.

# Uşaq hüquqlarının müdafiəsində qeyri-hökumət təşkilatlarının rolu

***Uşaq hüquqlarının qorunmasında beynəlxalq hökumətlərarası təşkilatlarla yanaşı, beynəlxalq qeyri-hökumət təşkilatları da mühüm yer tutur. Başqa sözlə desək, beynəlxalq qeyri-hökumət təşkilatları, digər sahələrdə olduğu kimi, uşaq hüquqlarının müdafiəsi sahəsində də dinamik element kimi çıxış edir.***

Onu da qeyd etmək lazımdır ki, beynəlxalq qeyri-hökumət təşkilatlarının əsas xarakterik əlamətləri onların hökumətdən asılı olmaması, üzvlərin iştirakının könüllülüyü, vətəndaş cəmiyyəti, geniş kütlə və s. kimi kateqoriyalarla sıx qarşılıqlı əlaqədə mövcudluğu kimi müddəalar hesab edilir.

Nadir Adilov yazır: "Bütövlükdə, beynəlxalq qeyri-hökumət təşkilatlarının təhlili ilə onların fəaliyyətinin əsas xüsusiyyətləri belə ifadə edilə bilər:

- dünyanın müxtəlif dövlətlərinin ictimai təşkilatlarının nümayəndələri, habelə, ayrı-ayrı fiziki şəxslər, mütəxəssislər tərəfindən təşkil olunmuş birlik (təşkilat, federasiya, cəmiyyət, şura, ittifaq, komissiya, komitə, mərkəz, assosiasiya, fond, institut, akademiya və s.) formasında təzahür etmək;
- beynəlxalq hökumətlərarası təşkilatlarda məşvərətçi statusun mövcudluğu;
- vətəndaş cəmiyyətinin, BMT Nizamnaməsinin ümumtanınmış prinsipləri və beynəlxalq hüququn normaları ilə ziddiyyət təşkil etməyən beynəlxalq münasibətlərin (zorakılıq metodlarının istifadəsi və təbliğindən çəkinmək, sülhün dəstəklənməsi və beynəlxalq inteqrasiyanın genişlənməsinə cəhd edilməsi və s.) inkişafına yönəlmiş məqsəd və vəzifələrin mövcudluğu;
- gəlir əldə edilməsi və kommersiya məqsədləri güdən fəaliyyətlə məşğul olmamaq;
- ikidən çox dövlətin ərazisində nümayəndəliyin və ya şöbənin olması;
- Ətraf Mühit və İnkişaf üzrə BMT Konfransının Gündəliyinin 21-ci maddəsində təsbit edilən "vətəndaş cəmiyyəti" (vətəndaş cəmiyyəti dedikdə, cəmiyyətin müxtəlif sosial təbəqələrinin maraqlarını əks etdirən rəhbər qruplardan ibarət müəyyən, özünəməxsus qurum başa düşülür) anlayışına uyğun gəldiyindən beynəlxalq qeyri-hökumət təşkilatlarının vətəndaş cəmiyyətinin elementi sayılması;
- beynəlxalq qeyri-hökumət təşkilatlarını dinamikliyi, elastikliyi, müvafiq fəaliyyətə nisbətən yaxınlığı, dəyişən siyasi, iqtisadi və sosial vəziyyətə tez reaksiya verən, bütün bunlar barədə, nəinki dövlət strukturlarını məlumatlandıran, həm də tez-tez yeni elmi metod, yanaşma, variantlar, mürəkkəb vəziyyətdən çıxış yolları təklif və tətbiq edən təsisatlar qismində çıxış etməsi;
- ictimai, peşə, elmi sahələrlə məşğul olan qeyri-hökumət təşkilatlarının müvafiq məsələ və problemləri diqqətlə öyrənmək imkanına malik olması və zəruri hallarda dövlət orqanlarına kömək göstərməsi".

Beynəlxalq qeyri-hökumət təşkilatlarının fəaliyyətinin əsas xüsusiyyətləri ədəbiyyatda belə müəyyən edilir:

- beynəlxalq hüququn müxtəlif sahələrinin beynəlxalq-hüquqi tənzimlənməsindəki boşluqların üzə çıxarılmasında beynəlxalq hüququn subyektlərinə yardım edilməsi və bu barədə hökumətlərarası təşkilatların orqanlarına, yaxud dövlətə məlumatların çatdırılması;
- ekspert, elmi-texniki və digər rəylərin verilməsi yolu ilə qətnamə və konvensiya layihələrinin işlənib-hazırlanmasında hökumətlərarası təşkilatlara kömək göstərilməsi;
- ictimai fikrin formalaşdırılması və onlar tərəfindən müqavilə təşəbbüsü barədə dünya ictimai mövqeyinin dövlətlərə və hökumətlərarası təşkilatlara çatdırılması;
- beynəlxalq hüququn bu və ya digər sferasında beynəlxalq müqavilələrin işlənib-hazırlanması, qəbulu, imzalanması və ratifikasiyasının zəruriliyi haqqında dünya ictimai fikrinin formalaşdırılması;
- bu və ya digər beynəlxalq hüquq normasının sonrakı tətbiqi üçün heç də az rol oynamayan ictimai təşkilatlar tərəfindən beynəlxalq hüquq düşüncəsinin yaradılması.

Beynəlxalq qeyri-hökumət təşkilatlarının mövcud olan fəaliyyət istiqamətlərinin ən mühüm hissəsini beynəlxalq normayaradıcılıq funksiyası, o cümlədən, ictimai fikrin formalaşdırılması təşkil edir. Mövcud məsələ bir sıra tədqiqatçı-alimlər, o cümlədən, mühüm beynəlxalq qanunların nümayəndələri tərəfindən də dəfələrlə qeyd edilmişdir. Məsələn, BMT-nin keçmiş Baş Katibi Butros Butros Qali təşkilatın 50 illiyində etdiyi məruzəsində BMT-nin işinin əsas istiqamətlərindən biri qismində demokratiya prosesinin dəstəklənməsinin çıxış etdiyini, xüsusilə, vurğulamışdır. Bundan əlavə, belə vəziyyətin bir yolu da qeyri-dövlət subyektlərinə, qeyri-hökumət təşkilatlarına, parlament üzvlərinə, elmi və işgüzar dairələrin, o cümlədən, kütləvi informasiya vasitələrinin nümayəndələrinə BMT forumlarında öz fikirlərini ifadə etmək imkanının verilməsidir. Göstərildiyi kimi, hüquqda mövcud olan boşluqların doldurulması və beynəlxalq hüququn inkişafı beynəlxalq qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün çox mühüm əhəmiyyətə malikdir. Belə ki, beynəlxalq qeyri-hökumət təşkilatları həm hüquqyaratma, həm də hüquqtətbiqetmə mərhələlərində boşluqların üzə çıxarılmasına yaxından kömək edirlər. Məsələn, uşaq hüquqlarına dair 1959-cu il Bəyannaməsi və 1989-cu il Konvensiyası layihəsinin hazırlanmasında "Uşaqların Beynəlxalq Xilası Alyansı" (The İnternational Save the Chıldren Allıance) aktiv iştirak etmişdir. "Beynəlxalq Amnistiya" qeyri-hökumət təşkilatı Azadlıqdan məhrum edilmiş yetkinlik yaşına çatmayanların müdafiəsinə dair BMT Baş Məclisi tərəfindən qəbul edilmiş BMT Qaydalarının təşəbbüskarı kimi çıxış etmişdir. Dünya ictimaiyyətinin artan tələblərinə dərhal reaksiya verən beynəlxalq qeyri-hökumət təşkilatları, həm də beynəlxalq cəmiyyət çərçivəsində mövcud olan mühüm münasibətlərin özünəməxsus spesifik vasitələrlə nizama salınmasına cəhd edir. Bu, ya mövcud beynəlxalq qeyri-hökumət təşkilatlarının nizamnamələrinin nəzərdə tutulan səlahiyyətlərin genişləndirilməsi, ya da yeni ixtisaslaşmış beynəlxalq qeyri-hökumət təşkilatlarının yaradılması yolu ilə həyata keçirilə bilər.

Konkret olaraq, insan hüquqlarına gəldikdə isə, beynəlxalq qeyri-hökumət təşkilatlarının fəaliyyətini şərti olaraq aşağıdakı istiqamətlərdə ifadə etmək olar:

- əhali ilə iş aparılması, insan hüquqlarının pozulmasının üzə çıxarılması və həmin halın ciddi tənqid olunması üçün ictimai fikrin səfərbər edilməsi;
- milli və beynəlxalq səviyyədə insan hüquqlarının pozulması qurbanlarına, bilavasitə hüquqi yardım göstərilməsi;
- insan hüquqlarının pozulması barədə məlumatların İnsan Hüquqları Komissiyası (hal-hazırda İnsan Hüquqları Şurası), BMT Baş Katibi, İnsan Hüquqları üzrə Ali Komissarın diqqətinə çatdırılması, insan hüquqlarının pozulmasına yol verən ölkələrdə insan hüquqları sahəsində vəziyyətin dəyişməsinə yönəlmiş əsas üsullar barədə təkliflərin təqdim edilməsi;
- hüquqi və texniki yardımların göstərilməsi, insan huquqları barədə biliklərin yayılması.

N.Adilovun fikrincə, bu istiqamətdə uşaq hüquqlarına da yaxın olan bir sıra beynəlxalq qeyri-hökumət təşkilatlarının fəaliyyəti də xüsusi qeyd edilməlidir. Məsələn, 1987-ci ildə xüsusi məşvərətçi statusu əldə edən İşgəncələr Əleyhinə Beynəlxalq Assosiasiya işgəncələr, xüsusilə, XX əsrin 70-ci illərində diktator rejimlərinin idarəçiliyi dövründə Latın Amerikası ölkələrində tətbiq olunan işgəncələrə qarşı mübarizə məqsədilə yaradılmışdır. O, təkcə işgəncə kontekstində insan hüquqlarının pozulması problemini deyil, həm də araşdırma və informasiya-təbliğat fəaliyyətinin həyata keçirilməsi funksiyasını həyata keçirir. Qadın hüquqlarının qorunması istiqamətində bir sıra beynəlxalq qeyri-hökumət təşkilatlarının mövcudluğu tendensiyasını, xüsusilə, vurğulamaq lazımdır. Məsələn, Qadınların Ümumdünya Sammiti Forumu (QÜSF) kommersiya və humanitar xarakterli beynəlxalq qeyri-hökumət təşkilatı olmaqla, qadın və uşaqların maraqları naminə iştirak zamanı yeni inkişaf modeli üzərində işləyən qeyri-hökumət təşkilatları və fərdlərin beynəlxalq koalisiyası sayılır. Uşaqların seksual istismarına son qoymaq və xalqları belə praktikanın aradan qaldırılmasına çağırmaq məqsədilə forum 1996-cı ildə Ümumdünya Uşaqların Ləyaqətinin Müdafiəsi Fondunu təsis etmişdir. Həmin ildən etibarən, fond uşaqlara münasibətdə seksual qəsdlərin qarşısının alınması və onların reabilitasiyası ilə əlaqədar dünyanın müxtəlif ölkələrində 11 proqram və layihə maliyyələşdirmişdir. Göstərilən qurum uşaqların ləyaqət hüququnun, xüsusilə, vurğulanması, onun ictimai təşkilatlar tərəfindən dərk edilməsinə yardım göstərilməsi, bu ciddi sosial çatışmazlıq barədə vərəqə və nəşrlərdən istifadə etmək yolu ilə yeni üzvlərin cəlb edilməsində də əsaslı rol oynamışdır. Fondun İcraçı-direktorunun iştirak etdiyi uşaqlara münasibətdə seksual qəsd məsələləri üzrə YUNESKO ekspertlərinin Müşavirəsində İnternet şəbəkəsində uşaq pornoqrafiyasının hələ də qaldığı, xüsusilə, vurğulanmışdır.

Onu da qeyd etmək lazımdır ki, fondun əldə etdiyi bütün vəsaitlər seksual istismar və qəsdlərə məruz qalan, həmçinin, yetim uşaqların reabilitasiyası layihələrinin maliyyələşdirilməsinə yönəlmişdir. QÜSF, həmçinin, İnsan Hüquqları Komissiyası ilə birgə "Sülhün planlaşdırılması" adlı 1999-cu il Layihəsinin həyata keçirilməsi istiqamətində də bir sıra tədbirlər görmüşdür. Həmin Layihə 1948-ci il Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin məqsədlərinin dərk edilməsi səviyyəsinin yüksəldilməsi üzrə kampaniyaya tələbə və müəllimlərin cəlb edilməsinə yönəlmişdir.

Bundan əlavə, QÜSF iki ildə bir dəfə dörd dildə "Qadın və uşaqların hüquq və imkanlanının genişləndirilməsi" adlı qlobal bülleten nəşr etdirməklə, BMT ilə iş barədə onun hesabatlarının geniş spektrdə yayılmasına şərait yaradır.

Bütün bunlarla yanaşı, ayrı-ayrı beynəlxalq qeyri-hökutnət təşkilatları da insan hüquqlarının müdafiəsində əsaslı rol oynamaqla, müvafiq sferada pozuntuların aradan qaldırılması, o cümlədən, insan hüquqlarının təmin edilməsi və müdafiəsi sahəsində əsaslı rol oynayırlar. Nümunə qismində Beynəlxalq Amnistiyanı göstərmək olar. Belə ki, Beynəlxalq Amnistiya - əsas insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində fəaliyyət göstərən, müstəqil qeyri-siyasi beynəlxalq təşkilatdır. Əhalinin müxtəlif təbəqəsini özündə birləşdirən təşkilat geniş baxışları əks etdirir.

Adıçəkilən qurumun fəaliyyət istiqamətləri, əsas etibarilə, aşağıdakılara cəhd edilməsinə yönəlmişdir: zorakılığa əl atmadan və ya çağırmadan bütün vicdan dustaqlarının, əqidəsinə və ya etnik mənşəyi, cinsi, dərisinin rəngi, dilinə görə həbs olunmuş şəxslərin azadlığa buraxılması; siyasi məhbuslar üçün ədalətli və təxirəsalınmadan məhkəmənin təmin edilməsi; ölüm cəzasının ləğvi, işgəncənin və məhbuslarla qəddar rəftarın dayandırılması; məhkəmədənkənar cəzaların və insanların yoxa çıxarılmasının aradan qaldırılması.

**Vahid Ömərov,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 5 iyul

## Simsiz implant korluğun qarşısını almağa kömək edəcək



Kaliforniya Texnologiya İnstitutunun (Caltech) tədqiqatçıları insan gözünə yerləşdirilən təzyiqölçən cihaz hazırlayıblar. Qurğu bir neçə il ərzində simsiz şəbəkə vasitəsilə xəstənin gözünün sağlamlığı barədə məlumatların ötürülməsi üçün nəzərdə tutulub.

AZƏRTAC "Naukatv" resursuna istinadən yazır ki, simsiz və yüksək həssaslığa malik cihaz ABŞ ekspertləri tərəfindən ən yeni mikroelektronika texnologiyalarının köməyi və oftalmoloqlarla sıx əməkdaşlıqda hazırlanıb. O, qlaukoma xəstəsi (göz daxilində yüksək təzyiqə görə görmə qabiliyyətinin tədricən itirilməsi) olan insanlara nəzarət məqsədilə yaradılıb. Qlaukoma korluğun yayılmasına görə kataraktdan sonra ikinci səbəb hesab edilir.

Bildirilir ki, bu gün göz təzyiqi tonometrlər vasitəsilə ölçülür, lakin bu metodun çatışmazlığı ondan ibarətdir ki, təzyiq xəstə həkimin yanında olan zaman bir dəfə ölçülür. Göz təzyiqi gün ərzində bir neçə dəfə dəyişir və bu səbəbdən həkimin əldə etdiyi məlumatlar dəqiq olmur. Prosedur, həmçinin, yerli anesteziyadan istifadəni tələb edir.

## Ən bahalı çərəzlərdən biri - Makadamiya fındığı

Makadamiya fındığını müxtəlif dövrlərdə müxtəlif cür adlandırıblar: mullibimbi, bumera, kindal-kindal, Kvinslend, Avstraliya fındığı... İlk dəfə 1930-cu ildə Avstraliyanın Viktoriya ştatında botanik Ferdinand fon Müller əslən şotlandiyalı olan həmkarı və dostu Con Mak-Adamın şərəfinə onu Makadamiya fındığı adlandırmışdır. AZƏRTAC xəbər verir ki, həmin il Avstraliyada makademiyasevərlər assosiasiyası yaradıldığına görə məhz bu adın üzərində dayanılıb. 1970-ci ildən başlayaraq Makadamiya fındığı Avstraliyanın Kvinslend ştatında iri sahələrdə yetişdirilib.

Makadamiyanın 9 növündən 5-i yalnız Avstraliyada, 2 növü isə Braziliya, Kaliforniya, Cənubi Amerika və Havay adalarında yetişir. Hazırda onu tropik iqlimə malik bir çox ölkələrdə yetişdirirlər, lakin bitkinin başlıca düşməni okean küləkləridir. Yeganə tozlandırıcısı arılardır, onun çiçəklərindən əldə olunan bal çox ətirli və dadlı olur. Əkiləndən 7-10 il sonra 100 kiloqrama yaxın məhsul verir.

Makadamiya fındığı dünyanın ən bahalı çərəzləri sırasına daxildir. Onun məhsulunu ağacdan toplamaq və təmizləmək o qədər də asan başa gəlmir. Yaşılımtıl qəhvəyi rəngdə olan qalın qabığın içərisində yerləşən fındığı sərt qabığından çıxarmaq üçün 2 min pa təzyiq lazımdır.

Onun tərkibi vitamin və efir yağları ilə zəngindir. 100 qram fındığın qida dəyəri 700 kkal-dir. Makadamiya fındığında doymamış yağ turşularının tərkibində insan dərisində mövcud olan palmitin turşusu var. Kimyəvi tərkibinə görə Makadamiya yağı su samurunun piyini xatırladır. Ona görə də onun yağı quru və qabıqlanan dəri üçün ideal vasitədir, dərini nəmləndirir, yumşaldır, cavanlaşdırır və gözəlləşdirir, yara və yanıqların sağalmasını sürətləndirir. Tərkibində Makadamiya yağı olan kosmetik vasitələrin qiymətinin baha olmağı bununla əlaqədardır. Həmin yağla zəngin olan şampunlar tük soğanaqlarını möhkəmləndirir, saça təbii parlaqlıq verir və onu xarici mühitin təsirlərindən qoruyur.

Yüksək kaloriya malik Makadamiya fındığı dadına görə yer fındığını xatırladır. Onun iri və bütöv olanları şokolad və karamellə birlikdə, kiçik və xırda olanları isə salat və dəniz məhsullarından hazırlanan yeməklərə əlavə edilir.

Bir çox xəstəliklərə xeyirli olduğuna görə vətəni Avstraliyada müqəddəs hesab edilir. Makadamiya fındığı, həmçinin antioksidant təsir göstərir, qanda xolesterinin miqdarını və arterial təzyiqi azaldır. Yüksək kalorili olmasına baxmayaraq ürək-damar sistemi xəstəliklərinin yaranmasının qarşısını alır, arıqlamağa kömək edir, artrit, osteoporoz, kuperoz, varikoz və sellülitin müalicəsində istifadə edilir.

**ELAN**

Səmədova Sevinc Şəmi qızının adına olan Mersedes-Benz minik avtomobilinin 10 OU 973 qeydiyyat nömrə nişanı itmişdir. Tapanlardan 055-525-58-60 nömrəsinə zəng etmələrini xahiş edirik.

## "Yuventus"un 400 milyonluq Ronaldo planı



"Real"ın hücumçusu Kriştianu Ronaldo karyerasını "Yuventus"da davam etdirə bilər. Apasport.az saytının "Sky Sport Italia"ya istinadən məlumatına görə, Turin təmsilçisi rəsmi təklif göndərməyə hazırlaşır. Transferin "Yuventus"a ümumilikdə 400 milyon avroya başa gələcəyi gözlənilir. "Qoca sinyora" transferə görə "Real"a 120-150 milyon, Ronaldonun özünə isə illik 30 milyon avro məvacib ödəmək niyyətindədi.

33 yaşlı futbolçu prezident Florentino Pereslə arasında yaranan anlaşmazlıqlar və yeni müqavilə şərtlərinin razılaşdırılmamasına görə "Real"ı tərk etməkdə maraqlıdı. Eyni zamanda, "Yuve"nin Ronaldonun meneceri Jorje Mendeşlə yaxşı əlaqələri var.

## Kolumbiyalı futbolçuları öldürəcəkləri ilə hədələyirlər



Futbol üzrə dünya çempionatının 1/8 finalında Kolumbiya və İngiltərə komandaları arasında matçdan sonra Kolumbiya yığmasının hücumçusu Karlos Bakkanı və yarımmüdafiəçi Mateus Uribeni öldürəcəkləri ilə hədələməyə başlayıblar. AZƏRTAC Britaniyanın "Daily Mail" nəşrinə istinadla bildirir ki, futbolçuların ünvanına bu cür hədələr sosial şəbəkələrdə yayılır. Xatırladaq ki, çərşənbə axşamı Moskvadakı "Spartak" stadionunda İngiltərə və Kolumbiya yığmaları arasında matçın əsas və əlavə vaxtı heç-heçə başa çatıb - 1:1. Matçdan sonrakı penaltilər seriyasında ingilislər daha dəqiq olublar - 4:3.

Uribe və Bakkanın vurduğu zərbələr boşa çıxıb. Uribe topu qapı çatına vurub, Bakkanın zərbəsini isə ingilislərin qapıçısı Cordan Pikford geri qaytarıb. Bundan dərhal sonra sosial şəbəkələrdə hər iki oyunçunu hədələməyə başlayıblar və onların Kolumbiyaya qayıtmamasını məsləhət görüblər.

Qrup mərhələsinin birinci turunda Yaponiya komandasına qarşı oyunda 1:2 hesabı ilə məğlubiyyətdən sonra Kolumbiya yığmasının yarımmüdafiəçisi Karlos Sançesi hədələyiblər. Görüşün üçüncü dəqiqəsində Sançes qaydaları pozduğuna görə kolumbiyalılar azlıqda qalıb və onların qapısına penalti təyin edilib. Polis bu futbolçunu hədələyənlərin şəxsiyyətini müəyyən etmək məqsədilə hadisə üzrə təhqiqata başlayıb. Kolumbiyada belə hədələrə tamamilə ciddi yanaşmağa adət ediblər. 1994-cü il dünya çempionatında ABŞ komandasına qarşı matçda (1:2) avtoqola görə həmin matçdan on gün sonra Kolumbiya yığmasının üzvü Andres Eskobar öz vətənində güllələnib. Eskobarı güllələyən şəxs hər dəfə atəş açarkən "Qol!" deyə qışqırırmış. Qatil 43 il həbs cəzasına məhkum edilib, lakin cəmi 11 ildən sonra "nümunəvi davranışına görə" azadlığa buraxılıb.

## Xavi İspaniya yığmasına baş məşqçi təyin olunacaq?



İspaniya Futbol Federasiyası yığmanın baş məşqçi postuna axtarışları davam etdirir. İlk namizədlərdən biri "Barselona" klubunun və İspaniya yığmasının sabiq yarımmüdafiəçisi Xavidir. AZƏRTAC xəbər verir ki, buna səbəb isə İspaniya millisinin Rusiyada keçirilən dünya çempionatında səkkizdəbir final mərhələsində ev sahiblərinə məğlub olmasıdır.

Daha öncə, məşqçi lisenziyasını alan 38 yaşlı ispaniyalı 2019-cu ilin yanvarından "Əl-Sədd"in sükanı arxasına keçəcəyi barədə xəbərlər yayılmışdı. Onunla yanaşı, federasiyanın siyahısına son olaraq Belçika millisinin çalışdırıcısı Roberto Martinesin adı əlavə olunub.

Qeyd edək ki, Kike Sançes Flores, Luis Enrike, Miçel, Pako Xemes və Kike Setyenin də adı İspaniya millisi ilə birgə hallanır. Xatırladaq ki, futbol üzrə dünya çempionatının başlamasına bir gün qalmış İspaniya milli komandasının baş məşqçisi Xulen Lopeteqi istefaya göndərilib. İyunun 12-də Xulen Lopeteqinin dünya çempionatından sonra "Real Madrid" komandasına rəhbərlik edəcəyi açıqlanmışdı. Bu xəbər İspaniya millisində birmənalı qarşılanmayıb. İspaniya Futbol Federasiyasının prezidenti Luis Rubiales X.Lopeteqinin dərhal istefasını tələb edib. Xilen Lopeteqinin istefaya göndərilməsindən sonra bu vəzifəyə yığmanın idman direktoru Fernando Hierro təyin olunub.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**